№ 273 ISSN 1027-3875 15 sentyabr 2009

KHAZAR VIEW

XƏZƏR XƏBƏR



ELMİ-KÜTLƏVİ, BƏDİİ-PUBLİSİSTİK TOPLU

www.khazar.org

ELMİ-KÜTLƏVİ,
BƏDİİ-PUBLİSİSTİK
TOPLU

1995-ci ilin
yanvarından ayda 2 dəfə çıxır

Təsisçi:
XƏZƏR UNİVERSİTƏSİ

Baş redaktor:
Hamlet İSAXANLI

Baş redaktor müavini:
Əlirza BALAYEV

Redaksiya heyəti:
Camal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Cəmil HƏSƏNLİ
Bəhlul ABDULLA
Nizami CƏFƏROV
Əfqan ABDULLAYEV
İsmət ƏHMƏDOV

Rəssam:
Rafiq ƏBDÜLRƏHİMOV

Kompüter tərtibatçısı:
Emil MƏMMƏDOV
Fotomüxbir:
Könül ƏLİYEVA
Ünvanımız:
Bakı, Məhsəti küçəsi 11,
("Neftçilər" metrosunun yanı)
Faks: 498-93-79
Telefon: 421-79-16
421-10-93

Şəhadətnamə: 255
İndeks: 67178
Sifariş: 190
Tiraj: 3000

Müəlliflərlə
redaksiyanın mövqeyi
üst-üstə düşməyə bilər
Əlyazmalar geri qaytarılmır
Xəzər Universitəsi
mətbəəsində çap edilmişdir

SCIENTIFIC-POPULAR
LITERARY-PUBLICISTIC
COLLECTION

It has been publishing twice
a month since January, 1995

Founder:
KHAZAR UNIVERSITY

Editor-in-chief:
Hamlet ISAXANLI

Associate editor:
Alirza BALAYEV

Editorial member:
Jamal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Jamil HASANLI
Bahlul ABDULLA
Nizami JAFAROV
Afgan ABDULLAYEV
İsmat AHMADOV

Design by:
Rafig ABDULRAHIMOV

Computer graphics:
Emil MAMMADOV
Photoreporter:
Konul ALIYEVA

Address:
11 Mahsati str., Baku,
(near the "Neftchilar" metro)
Fax: 498-93-79
Phone: 421-79-16
421-10-93

Certificate: 255
Index: 67178
Order: 190
Copies: 3000

The opinions of authors
and editors
could be independent
Manuscripts are not returned
Published by
Khazar University Press

OXUYUN

Bu nömrədə



YENİ TƏDRİS İLİNİN AÇILIŞ MƏRASİMİ 5

Təhsil haqqında AR qanunu 6



ARXEOLOQUN ÇÖL GÜNDƏLİYİNDƏN 16



THE NEW TRENDS OF GLOBAL DEVELOPMENTS AND TURKISH WORLD 18

İsaxan İsaxanlı 22
YESENİNİN VƏTƏNİNDƏ





ЗАРУБЕЖНЫЕ ЗВЕЗДЫ ГОЛЛИВУДА 28

USAQ DÜNYASI



34

YENİ DƏRS İLİNİZ MÜBARƏK!



Xəzər Universitəsinə 2009-2010-cu tədris ili üçün tələbə qəbulu başa çatmışdır. Universitənin qəbul və tələbə şöbəsinin müdiri İsaxan İsaxanlı növbəti qəbulun nəticələrini şərh edir:

Bu il Xəzər Universitəsinə 295 plan yerinə 20 ixtisas üzrə qəbul aparılıb. Birinci qrup üzrə 5 ixtisasa (neft-qaz mühəndisliyi, kompüter mühəndisliyi, kompüter elmləri, inşaat mühəndisliyi, riyaziyyat və informatika müəllimliyi), ikinci qrup üzrə 6 ixtisasa (mühasibat uçotu və audit, maliyyə, iqtisadiyyat, menecment, marketinq, biznesin idarə edilməsi), üçüncü qrup üzrə 9 ixtisasa (filologiya-ingilis dili və ədəbiyyatı, xarici dil müəllimliyi (ingilis dili), tərcümə (ingilis dili), filologiya-Azərbaycan dili və ədəbiyyatı, Azərbaycan dili və ədəbiyyatı müəllimliyi, politologiya, regionşünaslıq (regionlar üzrə), jurnalistika, ibtidai sinif müəllimliyi) tələbə qəbul olunub.

295 plan yerindən 60-ı birinci qrupa, 100-ü ikinci qrupa, qalan yerlər isə üçüncü qrupa ayrılmışdı. Qəbul, məlum olduğu kimi, iki turda aparılır; birinci turdan boş qalan yerlər üçün müsabiqə yolu ilə ikinci tur elan olunur. Universitəmizə birinci turda 164, ikinci turda isə 54 nəfər qəbul olunmuşdur.

Qəbul olunmuş 218 abituriyentdən 168 nəfəri Azərbaycan bölməsinin, 50 nəfəri isə rus bölməsinin tələbələridir.

Qəbul imtahanlarında müəyyən bal həddindən yuxarı bal toplayan tələbələrə təhsil haqqının ödənilməsində güzəştlər barədə də məlumat vermək istəyirəm. Güzəştlər toplanmış ballara görə müxtəlifdir və Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının hər il qəbuldan əvvəl plan yerlərini dərc etdiyi "Abituriyent" jurnalında onlar dəqiq göstərilir. Bu güzəştləri belə müəyyənləşdirmişik: 500-549 arası bal toplayanlara 25%, 550-599 arası bal toplayanlara 50%, 600-649 arası bal toplayanlara 75% güzəşt olunur. 650-dən yuxarı bal toplayan tələbə isə təhsil haqqını ödəməkdən 100% azaddır. Bu il 8 tələbəmiz bu güzəştlərdən yararlanacaqdır. Onlardan 4 nəfəri İqtisadiyyat və menecment fakültəsinin (ikinci qrup), 3 nəfəri Memarlıq, mühəndislik və tətbiqi elmlər fakültəsinin (birinci qrup), 1 nəfəri isə Humanitar və sosial elmlər fakültəsinin (üçüncü qrup) tələbəsidir. Həmin tələbələr aşağıdakılardır:

Ağayev Eldar Savadxan oğlu, 672 bal, biznesin idarə olunması ixtisası;

Rəcəbov Rəcəb Məmməd oğlu, 670 bal, maliyyə ixtisası;

Xasməmmədov Kənan Elşad oğlu, 637 bal, neft-qaz mühəndisliyi ixtisası;

Qasımzadə Sevinc Firdovsi qızı, 614 bal, tərcümə (ingilis dili) ixtisası;

Hüseynli Azər Şirin oğlu, 591 bal, kompüter mühəndisliyi ixtisası;

Məmmədov İsa Tahir oğlu, 577 bal, maliyyə ixtisası;

Seyidov Fərid Qəni oğlu, 549 bal, kompüter elmləri ixtisası;

Rzalı Ziya İbrahim oğlu, 526 bal, mühasibat uçotu və audit ixtisası.

Qeyd edim ki, güzəştlər bütün təhsil müddəti ərzində tətbiq olunur. Lakin belə bir qayda da mövcuddur ki, güzəştə layiq görülən tələbələrdən kimsə təhsildə yaxşı nəticələr göstərməzsə, güzəştin ləğv olunması məsələsinə baxıla bilər. Universitəmizə qəbul olunan tələbələrə hər il payladığımız yaddaş kitabçasında bu barədə xəbərdarlıq edilir. Ancaq, adətən, yüksək balla qəbul olunan tələbələr təhsillərində yaxşı göstəricilərə nail olurlar.

Hər il sentyabrın 15-də universitəmizdə yeni dərs ilinin başlanması ilə əlaqədar açılış mərasimi keçirilir və yeni qəbul olunanlara tələbə bileti verilir. Yüksək balla qəbul olunanlara tələbə biletini Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı təqdim edir.

Əvvəlki illərdə həmin gün yeni qəbul olunan tələbələrin ingilis dili səviyyəsini müəyyənləşdirmək və onları qruplara yerləşdirmək üçün ingilis dilindən yerləşdirmə (placement) imtahanı keçirilirdi. Bu il isə həmin imtahanı tələbələrin universitədə qeydiyyatı zamanı keçirdik.

Sonda universitəmizə yeni qəbul olunmuş tələbələri təbrik edir, onlara və digər tələbələrimizə təhsildə böyük uğurlar arzulayıram.

The education partnership conference takes place in Baku



On September 10, "Erasmus Mundus - External Co-operation Window: Lot 6" partnership conference has started in Baku. President of Khazar University **Hamlet Isakhanli** and Rector of the Azerbaijan Tourism Institute **Jafar Jafarov** welcomed to guests. Minister of Culture and Tourism **Abulfas Garayev**, Counselor of the Delegation of the European Commission to Azerbaijan **Jean-Louis Lavroff**, Deputy Foreign Minister **Mahmud Mammadguliyev** and Project Coordinator for South Caucasus **Tania Kapiki** addressed the opening ceremony.

Jean-Louis Lavroff said to improve student exchange procedure, modernize education system and arrange dialogue between the EU and other countries the European Union is implementing three projects "Tempus", "Erasmus Mundus" and "Erasmus Mundus - External Co-operation Window. Lot 6". "Erasmus Mundus - External Co-operation Window" has been implemented in Azerbaijan since 2006. Representatives of higher schools of Greece, Portugal, Italy, Bulgaria and Georgia, ambassador of Greece **Ioannis Metaksas**, ambassador of Norway **Jon Ramberg** and representatives of other diplomatic offices also attended the opening ceremony.

Then Project Coordinator for South Caucasus Tania Kapiki presented award, *the Best Master Student*, to **Ayten Mammadova** (Master student of Khazar University) who studied through the exchange program.

The conference will end on September 13.

Note: It will be given more information about this conference in the next number of *Xazar Xabar*.



YENİ TƏDRİS İLİNİN AÇILIŞ MƏRASİMİ

Sentyabrın 15-də Xəzər Universitəsində yeni tədris ilinin ənənəvi açılış mərasimi oldu. Builki açılış universitənin yeni tədris korpusunun istifadəyə verilməsi ilə əlamətdar idi.

Mərasimdə Xəzər Universitəsinin yaradıcısı və rektoru, professor **Hamlet İsaxanlı** çıxış edərək tələbələri, xüsusən birinci kursa qəbul olunmuş gəncləri təbrik etdi, onlara təhsillərində uğurlar arzuladı. Rektor Xəzər Universitəsi, onu başqa ali təhsil müəssisələrindən fərqləndirən cəhətlər haqqında ətraflı məlumat verdi, universitənin geniş beynəlxalq əlaqələrindən danışdı. Sonra rektor yüksək bal toplamış abituriyentlərə tələbə biletini təqdim etdi.

Universitənin İngilis dili departamentinin baş müəllimi **Firəngiz Nəsirova**, İqtisadiyyat və menecment fakültəsinin professoru **İnqilab Əhmədov**, universitənin müəllimi, xalq artisti **Arif Babayev** və Universitə Tələbə Məclisinin prezidenti **Pərviz Muradov** çıxış edərək, tələbələrə yeni dərs ilində uğurlar arzuladılar.

Mərasim universitənin mahnı və rəqs ansamblının kiçik konserti ilə başa çatdı.

(Açılış mərasimindən geniş yazı növbəti nömrədə dərc olunacaqdır)

TƏBRİK EDİRİK!



İLİN ƏN YAXŞI MÜƏLLİMİ

Bakı şəhərinin Nərimanov rayonundakı Bağça-Məktəb və Lisey kompleksinin, həmçinin Xəzər Universitəsi İngilis dili və ədəbiyyatı departamentinin müəllimi Rəsmiyyə Bədirova Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "İlin ən yaxşı müəllimi" adına layiq görülmüşdür. Rəsmiyyə xanımı universitəmizin adından təbrik edir, müəllimlik fəaliyyətində və şəxsi həyatında ona uğurlar arzulayırıq.

TƏHSİL HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun vətəndaşların Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunmuş təhsil hüququnun təmin edilməsi sahəsində dövlət siyasətinin əsas prinsiplərini və təhsil fəaliyyətinin tənzimlənməsinin ümumi şərtlərini müəyyən edir, təhsilin ayrı-ayrı pillələri üzrə müvafiq qanunların və digər normativ hüquqi aktların qəbul edilməsində baza rolunu oynayır. Azərbaycan Respublikasında təhsil dünyəvi və fasiləsiz xarakter daşımaqla, vətəndaşın, cəmiyyətin və dövlətin maraqlarını əks etdirən strateji əhəmiyyətli prioritet fəaliyyət sahəsidir. Azərbaycan Respublikasında təhsil insan hüquqları haqqında beynəlxalq konvensiyalara və Azərbaycan Respublikasının tərəfdar çıxdığı digər beynəlxalq müqavilələrə əsaslanır, təhsil sahəsində milli-mənəvi və ümumbəşəri dəyərlərin prioritetliyi əsasında dünya təhsil sisteminə inteqrasiya olunaraq inkişaf edir.

I FƏSİL
ÜMUMİ MÜDDƏALAR

Maddə 1. Əsas anlayışlar

1.0. Bu Qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.0.1. abituriyent – ali təhsil və ya orta peşə-ixtisas təhsili müəssisəsinə qəbul olunmaq üçün müvafiq sənədləri təqdim etmiş şəxs;

1.0.2. adlı təqaüd – təhsildə uğurlu nəticələri ilə xüsusi fərqlənən, təhsil müəssisəsinin ictimai-mədəni həyatında fəal iştirak edən təhsilalanların həvəsləndirilməsi üçün dövlət, hüquqi və fiziki şəxslər tərəfindən konkret şəxsin adına təsis olunan təqaüd;

1.0.3. adyunktura – hərbi təhsil müəssisəsində doktoranturaya bərabər tutulan yüksək ixtisaslı elmi-pedaqoji kadrların hazırlanması forması;

1.0.4. akademiya – müəyyən sahə üzrə ali və əlavə təhsil proqramlarını həyata keçirən, fundamental və tətbiqi elmi tədqiqatlar aparan ali təhsil müəssisəsi;

1.0.5. akkreditasiya – təhsil müəssisəsinin fəaliyyətinin dövlət təhsil standartlarına uyğunluğunun və onun statusunun müəyyənləşdirilib təsdiq edilməsi proseduru;

1.0.6. attestasiya – hər bir təhsil pilləsində və səviyyəsində təhsilalanların təhsildə nailiyyətlərinin və təhsilverənlərin fəaliyyətinin qiymətləndirilməsi proseduru;

1.0.7. bakalavr – bakalavriatı bitirmiş şəxslərə verilən ali peşə-ixtisas dərəcəsi;

1.0.8. bakalavriat – müvafiq ixtisaslar üzrə geniş profilli mütəxəssis hazırlığını həyata keçirən ali təhsilin birinci səviyyəsi;

1.0.9. distant (məsafədən) təhsil – tədris prosesinin elektron, telekommunikasiya, proqram-texniki vasitələr əsasında təşkil olunduğu təhsilalma forması;

1.0.10. dissertasiya – müvafiq elmi dərəcə almaq üçün təqdim edilən elmi tədqiqat işi;

1.0.11. dissertant – dissertasiya işini yerinə yetirən şəxs;

1.0.12. doktorant – doktoranturada təhsil alan şəxs;

1.0.13. doktorantura – ali təhsilin ən yüksək səviyyəsi, doktorluq elmi dərəcəsinin alınmasını həyata keçirən yüksək səviyyəli elmi-pedaqoji kadr hazırlığı forması;

1.0.14. dosent – ali təhsil müəssisəsində müəllimlərə verilən elmi ad və seçkili vəzifə;

1.0.15. elmlər doktoru – elm sahələri üzrə doktoranturada verilən ən yüksək elmi dərəcə;

1.0.16. evdə təhsil – müvafiq təhsil proqramlarına uyğun olaraq ümumi təhsilin evdə təşkili forması;

1.0.17. əlavə təhsil – vətəndaşların hərtərəfli təhsil tələbatını ödəmək məqsədi ilə əlavə təhsil proqramları əsasında verilən təhsil;

1.0.18. fəlsəfə doktoru – elm sahələri üzrə doktoranturada verilən yüksək elmi dərəcə;

1.0.19. fərdi təhsil – müxtəlif səbəblərdən uzun müddət təhsildən kənarda qalmış şəxslər, habelə müəyyən bir sahə üzrə xüsusi istedadı ilə fərqlənən şagirdlər üçün tətbiq edilən təhsil forması;

1.0.20. fəxri professor (doktor) – elmi-pedaqoji təcrübəsi və fəaliyyəti ilə fərqlənən professorlara və dosentlərə, eləcə də dünya elminin və təhsilinin inkişafında xüsusi xidmətləri olan xarici ölkə alimlərinə və ictimai xadimlərinə ali təhsil müəssisəsi tərəfindən verilən akademik ad (dərəcə);

1.0.21. formal təhsil – dövlət təhsil sənədinin verilməsi ilə başa çatan təhsil forması;

1.0.22. gimnaziya – əsasən humanitar sahədə istedad və qabiliyyəti ilə fərqlənən şagirdlər üçün təmayüllər üzrə təhsil xidmətləri göstərən ümumtəhsil müəssisəsi;

1.0.23. informal təhsil – özünütəhsil yolu ilə biliklərə yiyələnmənin forması;

1.0.24. innovasiya – müxtəlif təşəbbüslər, elmi tədqiqatlar əsasında formalaşan mütərəqqi xarakterli yeni-

liklər;
1.0.25. institut (ali məktəb) – müstəqil və ya universitetlərin struktur bölməsi olaraq, konkret ixtisaslar üzrə ali təhsilli mütəxəssis hazırlığını və əlavə təhsil proqramlarını həyata keçirən, tətbiqi tədqiqatlar aparan ali təhsil müəssisəsi;
1.0.26. ixtisas – müvafiq təhsil sənədində təsbit olunan peşə, bir peşə daxilində fəaliyyət növü;
1.0.27. ixtisaslaşma – müvafiq peşə-ixtisas təhsili istiqamətinin tərkib hissələrindən biri üzrə alınan peşə ixtisası;
1.0.28. kampus – müvafiq maddi-texniki bazaya və infrastruktura malik təhsil kompleksi (şəhərciyi);
1.0.29. kollec – orta ixtisas proqramları əsasında təhsil xidmətləri göstərən və subbakalavr peşə- ixtisas dərəcəsi vermək hüququ olan təhsil müəssisəsi;
1.0.30. konservatoriya – musiqi sahəsi üzrə yüksək ixtisaslı mütəxəssislər hazırlayan ali təhsil müəssisəsi;
1.0.31. qeyri-formal təhsil – müxtəlif kurslarda, dərnəklərdə və fərdi məşğələlərdə əldə edilən və dövlət təhsil sənədinin verilməsi ilə müşayiət olunmayan təhsil forması;
1.0.32. lisenziya – təhsil fəaliyyətinə dövlət tərəfindən verilən xüsusi razılıq;
1.0.33. lisey – ümumi və tam orta təhsil səviyyələrində istedadlı şagirdlər üçün müvafiq təmayüllər üzrə təhsil xidmətləri göstərən ümumtəhsil müəssisəsi;
1.0.34. magistratura – ali təhsilin ikinci səviyyəsi;
1.0.35. magistr - magistraturanı bitirmiş şəxslərə verilən ali elmi-ixtisas dərəcəsi;
1.0.36. nostrifikasiya – təhsil haqqında sənədin ekvivalentliyinin müəyyən edilməsi proseduru;
1.0.37. professor – yüksək elm və təhsil göstəricilərinə (xüsusi qabiliyyət tələb edən sahələr istisna olmaqla) nail olan təcrübəli elmlər doktorlarına verilən elmi ad, ali təhsil müəssisəsində seçkili vəzifə;
1.0.38. rezidentura – tibb ixtisasları üzrə baza ali təhsili əsasında həkim-mütəxəssis hazırlığı forması;
1.0.39. sərbəst (eksternat) təhsil – müxtəlif səbəblərdən ümumi təhsildən kənarda qalan şəxslərə təhsil almaq və ya təhsilalana ümumi təhsilin hər hansı pilləsini vaxtından əvvəl bitirmək hüququ verən təhsilalma forması;
1.0.40. subbakalavr – orta ixtisas təhsili pilləsində məzunlara verilən peşə-ixtisas dərəcəsi;
1.0.41. təhsil krediti – fənnin məzmununa və həcminə uyğun olaraq onun mənimsənilməsinə ayrılan vaxtın ölçü vahidi;
1.0.42. tədris planı – müvafiq təhsil pilləsində tədris olunan fənlərə və dərsdənkənar məşğələlərə ayrılan saatların miqdarını müəyyən edən əsas tənzimləyici sənəd;
1.0.43. təhsil – sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsi prosesi və onun nəticəsi;
1.0.44. təhsil investisiyası – təhsilin inkişafına sərmayə qoyuluşu;
1.0.45. təhsil proqramı (kurikulum) – təhsilin hər bir pilləsi üzrə təlim nəticələri və məzmun standartlarını, tədris fənlərini, həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının miqdarını, pedaqoji prosesin təşkili, təlim nəticələrinin qiymətləndirilməsi və monitorinqinin aparılması sistemini özündə əks etdirən dövlət sənədi;
1.0.46. təhsil məhsulu – təhsil sahəsində innovasiyalar, orijinal təhsil və fənn proqramları, təlim metodları sistemi, təhsil modulları, təhsil layihələri;
1.0.47. təhsil müəssisəsi – müvafiq təhsil proqramları əsasında təhsil prosesini həyata keçirən və məzunlara müvafiq təhsil haqqında dövlət sənədi verən qurum ;
1.0.48. təhsil müəssisəsinin muxtariyyəti – müvafiq icra hakimiyyəti orqanı tərəfindən dövlət təhsil müəssisəsinə verilən müstəqillik;
1.0.49. təhsil françayzinqi – təhsil məhsullarının müvafiq şərtlərlə (təhsil müəssisəsinin rəsmi adının və fərqləndirici nişanlarının saxlanılması, müəlliflik hüququnun qorunması və s.) daxili və ya beynəlxalq təhsil bazarında reallaşdırılması üzrə kompleks xidmətlər sistemi;
1.0.50. həkim - baza ali tibb təhsili almış məzunlara verilən ali peşə-ixtisas dərəcəsi;
1.0.51. həkim-mütəxəssis – müvafiq təhsil proqramlarına əsasən rezidenturanı bitirmiş şəxslərə verilən ali peşə-ixtisas dərəcəsi;
1.0.52. tyutor – ali təhsil müəssisəsində akademik məsləhətçi;
1.0.53. universitet – ali təhsilin bütün səviyyələri üzrə geniş spektrli mütəxəssislər hazırlığını, əlavə təhsil proqramlarını həyata keçirən, fundamental və tətbiqi elmi tədqiqatlar aparan çoxprofilli aparıcı ali təhsil müəssisəsi

Maddə 2. Təhsil haqqında Azərbaycan Respublikasının qanunvericiliyi

2.1. Təhsil haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, təhsil sahəsinə aid olan digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.
2.2. Təhsil qanunvericiliyinin əsas məqsədi təhsil sahəsində vətəndaşların konstitusiya hüququnun təmin edilməsindən və qorunmasından, icra strukturlarının, təhsilalanların və təhsilverənlərin, fiziki və hüquqi şəxslərin hüquq və vəzifələrinin düzgün müəyyən edilməsindən, onlar arasında münasibətlərin tənzimlənməsindən, təhsil sisteminin sərbəst fəaliyyəti və inkişafı üçün hüquqi təminatların yaradılmasından ibarətdir.

2.3. Bu Qanun Azərbaycan Respublikasında fəaliyyət göstərən dini təhsil müəssisələrinə, xarici dövlətlərin diplomatik nümayəndəlikləri və konsulluqları yanında təhsil müəssisələrinə şamil edilmir.

Maddə 3. Təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri

3.0. Təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri aşağıdakılardır:

3.0.1. humanistlik – milli və ümumbəşəri dəyərlərin, şəxsiyyətin azad inkişafının, insan hüquqları və azadlıqlarının, sağlamlığın və təhlükəsizliyin, ətraf mühitə və insanlara qayğı və hörmətin, tolerantlıq və dözümlülüyün prioritet kimi qəbul olunması;

3.0.2. demokratiklik – təhsilalanların azad düşüncə ruhunda tərbiyə edilməsi, təhsilin dövlət-ictimai əsaslarla təşkilində və idarə edilməsində səlahiyyət və azadlıqların genişləndirilməsi, təhsil müəssisələrinin muxtariyyətinin artırılması;

3.0.3. bərabərlik – bütün vətəndaşların bərabər şərtlər əsasında təhsil almasına imkanlar yaradılması və təhsil hüququnun təmin olunması;

3.0.4. millilik və dünyəvilik – milli və ümumbəşəri dəyərlərin qorunması və onların dialektik vəhdətinin təmin edilməsi əsasında dünyəvi təhsil sisteminin yaradılması və inkişaf etdirilməsi;

3.0.5. keyfiyyətlilik – təhsilin mövcud standartlara, normalara, sosial-iqtisadi tələblərə, şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqlarına uyğunluğu;

3.0.6. səmərəlilik – təhsilin və elmi yaradıcılığın daim inkişaf edən, faydalı və son nəticəyə istiqamətlənən müasir metodlarla təşkili;

3.0.7. fasiləsizlik, vəhdətlik, daimilik – mövcud təhsil standartları, tədris proqramları və planları əsasında təhsilin bir neçə səviyyədə əldə edilməsi imkanı, təhsilin ayrı-ayrı pillələri arasında sıx dialektik qarşılıqlı əlaqənin təmin olunması və onun insanın bütün həyatı boyu ardıcıl davam etməsi;

3.0.8. varislik – təhsil sahəsində əldə olunmuş bilik və təcrübənin ardıcıl olaraq növbəti nəslə (dövrə) ötürülməsi;

3.0.9. liberallaşma – təhsil sahəsinin və təhsil fəaliyyətinin açıqlığının genişləndirilməsi;

3.0.10. inteqrasiya – milli təhsil sisteminin dünya təhsil sisteminə səmərəli formada qoşulması, uyğunlaşması və qovuşması əsasında inkişafı.

Maddə 4. Təhsilin əsas məqsədi

4.0. Azərbaycan Respublikasında təhsilin əsas məqsədi aşağıdakılardır:

4.0.1. Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək;

4.0.2. milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli mütəxəssis-kadrlar hazırlamaq;

4.0.3. sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsini və ixtisasın daim artırılmasını təmin etmək, təhsilalanları ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlamaq.

Maddə 5. Təhsil hüququna dövlət təminatı

5.1. Dövlət hər bir vətəndaşın təhsil alması üçün müvafiq şəraitin yaradılmasına təminat verir və təhsilin hər hansı pilləsindən, səviyyəsindən və formasından məhrum edilməsinə yol vermir.

5.2. Dövlət cinsindən, irqindən, dilindən, dinindən, siyasi əqidəsindən, milliyyətindən, sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından asılı olmayaraq, hər bir vətəndaşa təhsil almaq imkanı yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminat verir.

5.3. Dövlət mülkiyyət formasından asılı olmayaraq, bütün təhsil müəssisələrinə işə qəbulda, vəzifələrə təyin olunmada və ya seçilmədə, əməyin stimullaşdırılmasında, təhsil müəssisələrinə qəbul olunmada, təhsilalanların təqaüdlə təmin edilməsində, ixtisasların seçilməsində, biliyin qiymətləndirilməsində, məzunların işlə təmin edilməsində, təhsilin növbəti pillədə davam etdirilməsində, ixtisasın artırılmasında və təhsil sahəsində digər məsələlərdə kişilər və qadınlar üçün bərabər imkanlar yaradılmasını təmin edir.

5.4. Dövlət hər bir vətəndaşın icbari ümumi orta təhsil almaq hüququnu təmin edir. Dövlət təhsil müəssisələrində hər bir təhsilalan pulsuz ümumi təhsil almaq hüququna malikdir. Dövlət orta ixtisas təhsilində və ali təhsilin hər bir səviyyəsində qanunvericiliyə uyğun olaraq təhsilalanların yalnız bir dəfə pulsuz təhsil almaq hüququnu təmin edir.

5.5. Dövlət əmək bazarının tələblərinə uyğun olaraq təhsil müəssisələrinə ixtisaslı kadr hazırlığı üçün dövlət sifarişləri verir və məzunların müvafiq işlə təmin olunmasına şərait yaradır.

5.6. Dövlət maddi vəziyyətindən asılı olmayaraq, istedadlı şəxslərin təhsilini davam etdirməsinə təminat verir, sosial müdafiəyə ehtiyacı olanların təhsil almasına şərait yaradır.

5.7. Dövlət milli təhsil ənənələrinin qorunmasına, inkişafına və innovasiyaların tətbiqinə təminat verir.

5.8. Dövlət xaricdə yaşayan azərbaycanlıların təhsili ilə bağlı xüsusi layihələr və proqramlar həyata keçirir.

Maddə 6. Təhsil sahəsində dövlət standartları

6.1. Təhsil sahəsində dövlət standartları fərdin, cəmiyyətin, dövlətin tələbatına uyğun olaraq, elmi-pedaqoji prinsiplər əsasında hazırlanan və müəyyən dövr (5 ildən az olmayaraq) üçün vahid dövlət tələblərini əks etdirən ümumi normalar məcmusudur.

6.2. Dövlət təhsil standartları təhsil sahəsində sınanmış mütərəqqi beynəlxalq meyarlar, milli və ümumbəşəri dəyərlər nəzərə alınmaqla müəyyən edilir.

6.3. Dövlət təhsil standartları və onların qüvvədə olma müddəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

6.4. Dövlət təhsil standartları təhsilin məzmununu, idarə olunmasını, maddi-texniki və tədris bazasını, infrastrukturunu, təhsilverənlərin keyfiyyət göstəricilərini, hər bir təhsil pilləsində təhsilalanların bilik, bacarıq və vərdişlərinin səviyyəsini müəyyənləşdirir.

6.5. Bütün təhsil müəssisələrində təhsilin müvafiq dövlət standartlarına uyğun təşkili təmin olunur.

6.6. Təhsil müəssisəsinin fəaliyyətinin, təhsilin səviyyəsinin və təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsində, akkreditasiyada və attestasiyada müvafiq dövlət təhsil standartları əsas götürülür.

6.7. Sağlamlıq imkanları məhdud şəxslərin təhsili üçün xüsusi dövlət standartları müəyyən edilir.

Maddə 7. Tədris dili

7.1. Azərbaycan Respublikasının təhsil müəssisələrində tədris dili dövlət dili – Azərbaycan dilidir.

7.2.Vətəndaşların və təhsil müəssisəsi təsisçilərinin istəyi nəzərə alınaraq, xüsusi hallarda (Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr və ya müvafiq icra hakimiyyəti orqanı ilə razılaşma əsasında) ümumi təhsil müəssisəsində Azərbaycan dili, Azərbaycan ədəbiyyatı, Azərbaycan tarixi və Azərbaycan coğrafiyası fənləri tədris olunmaqla tədris müvafiq dövlət təhsil standartları əsasında digər dillərdə də aparıla bilər.

7.3. Azərbaycan dilini zəif bilən təhsilalanlar üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada və təhsil proqramlarına uyğun hazırlıq sinifləri və kursları təşkil olunur.

II FƏSİL
AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL SİSTEMİ

Maddə 8. Təhsil sisteminin quruluşu

8.0. Təhsil sisteminə aşağıdakılar daxildir:

8.0.1. bütün təhsil müəssisələri, təlim-tərbiyə prosesi ilə məşğul olan və təhsil xidmətləri göstərən digər qurumlar, təhsil fəaliyyətini və onun inkişafını təmin edən elmi tədqiqat institutları və informasiya mərkəzləri, layihə, istehsal, kliniki, ictimai iaşə, tibbi-profilaktik və əczaçılıq strukturları, idman, istirahət və sağlamlıq kompleksləri, kampuslar, mədəni-maarif müəssisələri və təşkilatları, kitabxanalar, yataqxanalar, düşərgələr və digər infrastruktur obyektləri;

8.0.2. təhsili idarəetmə orqanları və onların tabeliyində fəaliyyət göstərən müəssisə və təşkilatlar;

8.0.3. təhsil sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatları, assosiasiyalar, cəmiyyətlər, elmi-metodik şuralar və digər qurumlar.

Maddə 9. Təhsilin keyfiyyət səviyyəsi

9.1. Təhsilin keyfiyyət səviyyəsi ölkədə qəbul olunan dövlət təhsil standartları əsasında beynəlxalq və ümumavropa təhsil sisteminin prinsiplərinə uyğunlaşdırılaraq təhsil pilləsi üzrə müvafiq keyfiyyət göstəriciləri sisteminə (təhsil proqramları, abituriyentlərin hazırlıq səviyyəsi, maddi-texniki baza, infrastruktur, informasiya resursları, təhsilverənlərin peşəkarlığı və elmi-pedaqoji səviyyəsi, mütərəqqi tədris texnologiyaları və s.) uyğun olaraq müəyyən edilir.

9.2. Təhsil müəssisəsində kadr hazırlığının keyfiyyət səviyyəsi məzunların milli və beynəlxalq əmək bazarında rəqabət qabiliyyəti, ölkənin sosial və iqtisadi inkişafında rolu ilə müəyyən edilir.

9.3. Təhsilin keyfiyyət səviyyəsi hər bir tarixi mərhələdə ictimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni inkişafla bağlı tələblərdən irəli gəlir və akkreditasiya xidməti tərəfindən müvafiq qaydada qiymətləndirilir.

Maddə 10. Təhsil proqramı (kurikulum)

10.1. Təhsil proqramı dövlət təhsil standartlarına uyğun ayrı-ayrı təhsil pilləsi və səviyyələri üzrə təhsilin məzmununu və mənimsənilmə qaydalarını müəyyən edir.

10.2. Təhsil proqramına tədris planı, fənlər üzrə tədris proqramları, metodik təminatla bağlı tövsiyələr, qiymətləndirmə və digər müvafiq təhsil texnologiyaları daxildir.

10.3. Azərbaycan Respublikasında təhsilin bütün pillələrini və səviyyələrini əhatə edən təhsil proqramları həyata keçirilir.

10.4. Təhsil proqramlarının yerinə yetirilməsi müddəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

10.5. Əlavə təhsil, distant təhsil və digər xüsusi təhsilalma formaları üçün müvafiq təhsil proqramları tətbiq edilir.

10.6. Sağlamlıq imkanları məhdud olan, uzun müddət müalicəyə ehtiyacı olan təhsilalanların təhsilini, müalicəsini, sosial adaptasiyasını və ictimai həyata inteqrasiyasını nəzərdə tutan xüsusi ümumtəhsil proqramları müəyyən edilir və həyata keçirilir.

10.7. Azərbaycan Respublikasında beynəlxalq təhsil proqramları da həyata keçirilir. Beynəlxalq təhsil proqramları üzrə mütəxəssis hazırlığı müvafiq qanunvericiliyə və təhsil müəssisəsinin nizamnaməsinə əsasən tənzimlənir.

Maddə 11. Təhsilin məzmununa və təşkilinə dair

ümumi tələblər

11.1. Təhsilin məzmununa və təşkilinə dair ümumi tələblər aşağıdakılardır:

11.1.1. təhsilalanlarda müasir tələblərə və şəraitə uyğunlaşmaq, rəqabət qabiliyyətli olmaq, informasiya cəmiyyətində yaşayıb fəaliyyət göstərmək, ünsiyyət yaratmaq bacarığını formalaşdırmaq;

11.1.2. öz üzərinə məsuliyyət götürmək, kollegial qərarların qəbulunda, demokratik təsisatların fəaliyyətində və inkişafında iştirak etmək keyfiyyətlərinə malik müstəqil, yaradıcı şəxsiyyət və vətəndaş formalaşdırmaq;

11.1.3. təhsilalanların fasiləsiz təhsil almasını, daim yeniləşən, müasir standartlara uyğun gələn biliklərə və dünyagörüşünə yiyələnməsini, cəmiyyətin tələbatını daha səmərəli ödəməsini, şəxsiyyət kimi inkişaf etməsini və ömür boyu təhsilin hamı üçün açıq və bərabər imkanlı olmasını təmin etmək;

11.1.4. yüksək intellektual səviyyəyə və praktiki iş qabiliyyətinə, yeni texnologiyalara yiyələnmək, informasiya axınında çevik istiqamət tapmaq bacarığını formalaşdırmaq;

11.1.5. cəmiyyətin yüksək səviyyəli və rəqabət qabiliyyətli kadr potensialına tələbatının ödənilməsi üçün real zəmin yaratmaq;

11.1.6. təhsil müəssisəsində tədris prosesinin təhsilalanların və təhsilverənlərin insan ləyaqətinə hörmət etməsi əsasında qurulmasını təmin etmək və təhsilalana qarşı hər hansı fiziki və psixoloji zorakılığa yol verməmək.

11.2. Təhsilin məzmununa və təşkilinə dair ümumi tələblər bu Qanunla və digər normativ hüquqi aktlarla tənzimlənir.

Maddə 12. Təhsilin formaları

12.1. Azərbaycan Respublikasında aşağıdakı təhsil formaları tətbiq olunur:

12.1.1. formal;

12.1.2. qeyri-formal;

12.1.3. informal.

12.2. Formal təhsilin təşkili qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Maddə 13. Təhsilalma formaları

13.1. Azərbaycan Respublikasında aşağıdakı təhsilalma formaları müəyyən edilir:

13.1.1. əyani;

13.1.2. qiyabi;

13.1.3. distant (məsafədən);

13.1.4. sərbəst (eksternat).

13.2. Azərbaycan Respublikasında müəyyən edilmiş təhsilalma formaları çərçivəsində evdə təhsil və fərdi təhsil təşkil oluna bilər.

13.3. Zəruri hallarda, müasir təhsil texnologiyalarından istifadə etməklə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada digər təhsilalma formaları da tətbiq edilə bilər.

Maddə 14. Təhsil müəssisəsi

14.1. Təhsil müəssisəsinin təşkilati-hüquqi forması və statusu müvafiq qanunvericiliyə uyğun müəyyən edilir.

14.2. Azərbaycan Respublikasında mülkiyyət növünə görə aşağıdakı təhsil müəssisələri fəaliyyət göstərir:

14.2.1. dövlət;

14.2.2. bələdiyyə;

14.2.3. özəl.

14.3. Azərbaycan Respublikasında dövlət təhsil müəssisələri bilavasitə mənfəət əldə etmək məqsədi güdmür.

14.4. Təhsil müəssisəsinin fəaliyyəti, hüquq və vəzifələri bu Qanun və Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları nəzərə alınmaqla onun nizamnaməsi ilə müəyyən edilir.

14.5. Təhsil müəssisəsinin aşağıdakı tipləri və növləri müəyyən edilir:

14.5.1. məktəbəqədər təhsil müəssisələri (körpələr evi, körpələr evi-uşaq bağçası, uşaq bağçası, xüsusi uşaq bağçası);

14.5.2. ümumi təhsil müəssisələri (ibtidai, orta və tam orta ümumtəhsil məktəbləri, ümumtəhsil internat məktəbləri, xüsusi məktəblər və xüsusi internat məktəbləri, sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi məktəblər və internat məktəbləri, xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün müəssisələr, istedadlı şagirdlər üçün məktəblər, gimnaziyalar, liseylər və digər müəssisələr);

14.5.3. məktəbdənkənar təhsil müəssisələri (uşaq yaradıcılıq mərkəzləri, uşaq-gənclər idman məktəbləri, uşaq-gənclər şahmat məktəbləri, ekoloji tərbiyə və təcrübə mərkəzləri, texniki yaradıcılıq mərkəzləri, turizm və diyarşünaslıq mərkəzləri, məktəbdənkənar iş mərkəzləri, estetik tərbiyə və bədii yaradıcılıq mərkəzləri və s.);

14.5.4. ilk peşə-ixtisas təhsili müəssisələri (peşə məktəbləri, peşə liseyləri);

14.5.5. orta ixtisas təhsili müəssisələri (kolleclər);

14.5.6. ali təhsil müəssisələri (universitetlər, akademiyalar, institutlar və s.);

14.5.7. əlavə təhsil müəssisələri (universitetlər, institutlar, mərkəzlər və s.);

14.5.8. təhsil fəaliyyətini həyata keçirən digər müəssisələr.

14.6. Müxtəlif tipli təhsil müəssisələri təhsil kompleksi və kampus formasında da fəaliyyət göstərə bilər.

14.7. İbtidai və ümumi orta təhsil müəssisələri azkomplektli formada da fəaliyyət göstərə bilər.

14.8. Təhsil müəssisəsində təhsil dövlət hesabına və (və ya) ödənişli əsaslarla həyata keçirilir. Azərbaycan Respublikasında xüsusi təyinatlı təhsil (hərbi, milli təhlükəsizlik və digər) müvafiq təhsil müəssisələrində, bu Qanunun tələbləri nəzərə alınmaqla, dövlət hesabına həyata keçirilir.

14.9. Təhsil müəssisəsində, təhsili idarəetmə və digər təhsil orqanlarında siyasi partiyaların və dini qurumların strukturlarının yaradılmasına və fəaliyyətinə yol verilmir.

14.10. Azərbaycan Respublikasında bütün təhsil müəssisələrində təhsilalanların geyim formaları təhsil müəssisəsinin nizamnaməsi ilə müəyyən edilir.

14.11. Dövlət ali təhsil müəssisəsinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi səlahiyyətlər çərçivəsində muxtariyyət hüququ (statusu) verilə bilər. Muxtariyyət hüququna malik təhsil müəssisəsi qanunvericiliyə və öz nizamnaməsinə uyğun olaraq, tədris, elmi tədqiqat, kadr, maliyyə-təsərrüfat və digər fəaliyyəti həyata keçirməkdə sərbəstdir.

14.12. Təhsil müəssisəsinin yaradılması, yenidən təşkili və ləğvi qanunvericilikdə müəyyən edilmiş qaydada həyata keçirilir.

14.13. Dövlət bütün təhsil müəssisələrinin, o cümlədən özəl təhsil müəssisələrinin inkişafını qanunvericiliyə uyğun kreditlər vermək, qrantlar ayırmaq və dövlət təhsil müəssisələrinə güzəştlər tətbiq etməklə təmin edir.

14.14. Təhsil müəssisəsinin maddi-texniki bazası və təhsil infrastrukturu müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi normativlərdən aşağı olmamalıdır.

14.15. Təhsil müəssisəsi hüquqi şəxsdir və müstəqil balansa malikdir. Təhsil müəssisəsinin müvafiq qanunvericiliyə uyğun olaraq banklarda hesablaşma hesabı və digər hesabları ola bilər. Təhsil müəssisəsi mövcud qanunvericilik çərçivəsində inzibati və maliyyə-təsərrüfat fəaliyyətini həyata keçirməkdə sərbəstdir.

14.16. Təhsil müəssisəsi qanunvericiliyə və öz nizamnaməsinə uyğun olaraq ölkənin və xarici dövlətlərin ərazisində filiallar açmaq (dövlət təhsil müəssisəsi müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmaq şərti ilə), habelə təhsilin inkişafı və təkmilləşdirilməsi məqsədi ilə ictimai təşkilatlarla təhsil birlikləri, assosiasiyaları və ittifaqları yaratmaq, eləcə də bu kimi təşkilatlara üzv olmaq hüququna malikdir.

14.17. Təhsil müəssisəsi öz fəaliyyətinə görə vətəndaşlar, cəmiyyət və dövlət qarşısında məsuliyyət daşıyır.

14.18. Azərbaycan Respublikasında fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələri qanunvericiliyə uyğun olaraq «Tələbə-məzun» dövlət elektron məlumat sisteminə qoşulmalıdır.

Maddə 15. Təhsil müəssisəsinin təsisçisi

15.1. Təhsil müəssisəsinin təsisçisi (təsisçiləri) dövlət, bələdiyyələr, Azərbaycan Respublikasının və xarici dövlətlərin hüquqi şəxsləri, Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər ola bilərlər.

15.2. Təsisçiləri əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər olan təhsil müəssisələrinin professor-müəllim heyətinin azı 80 faizini Azərbaycan Respublikasının vətəndaşları təşkil etməlidir.

15.3. Xüsusi təyinatlı təhsil müəssisələrinin təsis edilməsi qaydaları və onların siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

15.4. Təsisçinin məsuliyyəti, səlahiyyət dairəsi, təhsil müəssisəsi ilə qarşılıqlı öhdəlikləri Azərbaycan Respublikasının qanunvericiliyi, təsis müqaviləsi və təhsil müəssisəsinin nizamnaməsi ilə müəyyən edilir.

Maddə 16. Təhsil fəaliyyətinin lisenziyalaşdırılması və təhsil müəssisəsinin akkreditasiyası

16.1. Azərbaycan Respublikasında hər bir təhsil müəssisəsi təhsil fəaliyyəti göstərmək üçün qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanından xüsusi razılıq (lisenziya) almalıdır. Dövlət təhsil müəssisələrinə xüsusi razılıq (lisenziya) müddətsiz verilir. Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri tərəfindən təsis edilmiş bələdiyyə və özəl təhsil müəssisələrinə xüsusi razılıq (lisenziya) beş il müddətinə verilir. Əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər tərəfindən təsis edilmiş təhsil müəssisələrinə xüsusi razılıq (lisenziya) üç il müddətinə verilir.

16.2. Xarici hüquqi şəxslərin, onların filiallarının və nümayəndəliklərinin, əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin öz ölkələrində təhsil fəaliyyəti ilə məşğul olmaq üçün aldıqları lisenziyaların Azərbaycan Respublikasında tanınması dövlətlərarası müqavilələrlə müəyyən edilir.

16.3. Təhsil müəssisəsinin akkreditasiyası təhsil prosesinin təşkilinin, maddi-texniki bazasının, təhsil proqramlarının, kadr potensialının, maliyyə resurslarının və təhsil infrastrukturunun qəbul olunmuş dövlət standartlarına və digər normativ hüquqi aktların tələblərinə uyğunluğunun müəyyən edilməsi məqsədi ilə aparılır və təhsil müəssisəsinin statusunun müəyyən edilməsi, onun fəaliyyətinin növbəti müddətə (müvafiq olaraq bu Qanunun 16.1-ci maddəsində nəzərdə tutulmuş müddətlərdən az olmamaq şərti ilə) uzadılması üçün hüquqi təminat yaradır.

16.4. Təhsil müəssisəsinin akkreditasiyasını müvafiq icra hakimiyyəti orqanının müəyyən edilmiş qaydada yaratdığı dövlət akkreditasiya xidməti həyata keçirir. Akkreditasiya müvafiq keyfiyyət sənədinin – sertifikatın verilməsi ilə başa çatır.

16.5. Azərbaycan Respublikasında hüquqi şəxs kimi

dövlət qeydiyyatına alınmış, fəaliyyətinə xüsusi razılıq (lisenziya) verilmiş və akkreditasiya olunmuş təhsil müəssisəsinin fəaliyyətinə hüquqi təminat verilir.

Maddə 17. Təhsilin pillələri və səviyyələri

17.1. Azərbaycan Respublikasında aşağıdakı təhsil pillələri və səviyyələri müəyyən olunur:

17.1.1. Məktəbəqədər təhsil.

17.1.2. Ümumi təhsil:

17.1.2.1. ibtidai təhsil;

17.1.2.2. ümumi orta təhsil;

17.1.2.3. tam orta təhsil.

17.1.3. İlk peşə-ixtisas təhsili.

17.1.4. Orta ixtisas təhsili.

17.1.5. Ali təhsil:

17.1.5.1. bakalavriat;

17.1.5.2. magistratura;

17.1.5.3. doktorantura.

17.2. Təhsilin pillələri və səviyyələri arasında qarşılıqlı əlaqə və varislik təmin olunur. Hər bir təhsil pilləsi (məktəbəqədər təhsil istisna olmaqla) yekun qiymətləndirmənin və ya attestasiyanın nəticələrinə uyğun olaraq məzunlara dövlət nümunəli sənədin verilməsi ilə başa çatır.

17.3. Təhsilin pillələri və səviyyələri üzrə fəaliyyət müvafiq qanunvericilik aktları ilə tənzimlənir. Təhsilalanın əvvəlki pillədə və səviyyədə əldə etdiyi nailiyyətlər növbəti pillədə və səviyyədə təhsilin davam etdirilməsində nəzərə alınır.

Maddə 18. Məktəbəqədər təhsil

18.1. Məktəbəqədər təhsil təhsilin ilk pilləsi olmaqla, ailənin və cəmiyyətin maraqlarına uyğun olaraq, uşaqların erkən yaş dövründən intellektual, fiziki və psixi inkişafını, sadə əmək vərdişlərinə yiyələnməsini, istedad və qabiliyyətinin üzə çıxarılmasını, sağlamlığının qorunmasını, estetik tərbiyəsini, təbiətə və insanlara həssas münasibətinin formalaşmasını təmin edir.

18.2. Məktəbəqədər təhsil müvafiq təhsil proqramı əsasında həyata keçirilir.

18.3. Azərbaycan Respublikasında məktəbəqədər təhsil üç yaşdan başlayır.

18.4. Beş yaşlı uşaqlar üçün məktəbə hazırlıq zəruridir. Məktəbə hazırlığın təşkili qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

18.5. Məktəbəqədər təhsil uşağın valideynlərinin və ya digər qanuni nümayəndələrinin arzusu ilə məktəbəqədər təhsil müəssisələrində, ümumtəhsil müəssisələrinin müvafiq strukturlarında və ya ailədə həyata keçirilə bilər.

18.6. Məktəbəqədər yaşlı uşaqları evdə tərbiyə edən ailələr üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən müvafiq qaydada metodiki və diaqnostik məsləhət və əlaqələndirmə xidməti təşkil edilir.

Maddə 19. Ümumi təhsil

19.1. Ümumi təhsil təhsilalanlara elmlərin ümumi əsaslarının öyrədilməsini, zəruri bilik, bacarıq və vərdişlərin aşılanmasını, onların həyata və əmək fəaliyyətinə hazırlanmasını təmin edir.

19.2. Ümumi təhsil təhsilalanların fiziki və intellektual inkişafına, zəruri biliklərə yiyələnməsinə, onlarda sağlam həyat tərzinə və sivil dəyərlərə əsaslanan vətəndaş təfəkküründün formalaşmasına, milli və dünyəvi dəyərlərə hörmət hissinin aşılanmasına, ailə, cəmiyyət, dövlət və ətraf mühit qarşısında hüquq və vəzifələrinin müəyyən edilməsinə imkan yaradır.

19.3. Ümumi təhsil müvafiq təhsil proqramları əsasında həyata keçirilir.

19.4. Azərbaycan Respublikasında ümumi təhsil ibtidai təhsil, ümumi orta təhsil və tam orta təhsildən ibarətdir.

19.5. Ümumi təhsilin təhsil səviyyələri üzrə müddəti, bir səviyyəsindən digər səviyyəsinə keçid qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

19.6. Ümumi təhsil ümumtəhsil məktəblərində, xüsusi təmayüllü təhsil müəssisələrində, gimnaziyalarda, liseylərdə, ilk peşə-ixtisas və orta ixtisas təhsili müəssisələrində, habelə ali təhsil müəssisələrinin tabeliyində yaradılan məktəblərdə həyata keçirilə bilər.

19.7. Ümumi təhsil sistemində təhsilalanların fiziki inkişafını təmin etmək və müxtəlif yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək məqsədi ilə məktəbdənkənar təhsil proqramları tətbiq olunur.

19.8. Ümumi təhsili xüsusi nailiyyətlərlə başa vuran məzunlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada qızıl və ya gümüş medalla təltif olunurlar.

19.9. İbtidai təhsilin məqsədi təhsilalanlara oxumaq, yazmaq və hesablama bacarıqları aşılamaq, onlarda insan, cəmiyyət və təbiət haqqında ilkin həyati biliklər, məntiqi təfəkkür elementləri, estetik, bədii zövq və digər xüsusiyyətlər formalaşdırmaqdan ibarətdir.

19.10. İbtidai təhsil müvafiq təhsil proqramına əsasən həyata keçirilir.

19.11. Azərbaycan Respublikasında ibtidai təhsil altı yaşdan başlanır.

19.12. Valideynlərin və ya uşaqların digər qanuni nümayəndələrinin arzusu ilə təhsil müəssisəsi xüsusi istedadlı uşaqları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada daha erkən yaşda qəbul edə bilər.

19.13. Ümumi orta təhsilin məqsədi təhsilalanların

şifahi nitq və yazı mədəniyyətinin, ünsiyyət bacarığının, idrak fəallığının və məntiqi təfəkküründün inkişafını, təhsil proqramına daxil olan fənlər üzrə və eləcə də dünya sivilizasiyasının inkişafı haqqında müvafiq bilik və təsəvvürlərinin formalaşdırılmasını, müasir informasiya-kommunikasiya vasitələrindən istifadə etmək qabiliyyətini, hadisələri qiymətləndirmək və öz gələcək fəaliyyət istiqamətlərini müəyyənləşdirmək bacarığını təmin etməkdən ibarətdir.

19.14. Azərbaycan Respublikasında ümumi orta təhsil icbaridir.

19.15. Ümumi orta təhsil müvafiq təhsil proqramına əsasən həyata keçirilir.

19.16. Ümumi orta təhsil səviyyəsində yekun qiymətləndirmə aparılır və təhsili başa vuran təhsilalanlara müvafiq dövlət sənədi verilir. Ümumi orta təhsil haqqında sənəd təhsilin növbəti pillədə və səviyyədə davam etdirilməsi üçün əsas sayılır.

19.17. Tam orta təhsil səviyyəsində təhsilalanların istedad və qabiliyyətinin reallaşdırılması, müstəqil həyata və peşə seçiminə hazırlanması, fəal vətəndaş mövqeyinin, milli və ümumbəşəri dəyərlərə, insan hüquqlarına və azadlıqlarına hörmət hissinin və tolerantlığın formalaşdırılması, müasir informasiya-kommunikasiya texnologiyalarından və digər texniki vasitələrdən sərbəst istifadə etməsi, iqtisadi biliklərin əsaslarına yiyələnməsi, xarici dillərdən birində, yaxud bir neçəsində ünsiyyət saxlaması və s. təmin olunur.

19.18. Tam orta təhsil ümumi təhsilin hər üç səviyyəsini əhatə edən təhsil proqramlarının tam mənimsənilməsini nəzərdə tutur. Dövlət təhsil müəssisələrində tam orta təhsil pulsuzdur.

19.19. Tam orta təhsil səviyyəsində təhsilin təmayülləşməsi (humanitar, texniki, təbiət və digər) təmin olunur.

19.20. Tam orta təhsil umumi təhsilin sonuncu səviyyəsini təşkil edir və bu səviyyədə təhsilalanların biliyinin qiymətləndirilməsinin yekun dövlət attestasiyası həyata keçirilir. Attestasiyanın nəticələrinə görə məzunlara müvafiq qaydada dövlət nümunəli sənəd – attestat verilir.

19.21. Tam orta təhsil haqqında sənəd təhsilin növbəti pilləda davam etdirilməsi üçün əsas sayılır.

Maddə 20. İlk peşə-ixtisas təhsili

20.1. İlk peşə-ixtisas təhsili əmək bazarının tələbatına uyğun olaraq, ümumi orta təhsil və tam orta təhsil bazasında müxtəlif sənətlər və kütləvi peşələr üzrə ixtisaslı işçi kadrların hazırlanmasını təmin edir.

20.2. İlk peşə-ixtisas təhsili mülkiyyət formasından asılı olmayaraq peşə-ixtisas təhsili müəssisələrində və təhsil fəaliyyəti üçün xüsusi razılığı (lisenziyası) olan ayrı-ayrı təşkilatların, müəssisələrin, əmək birjalarının, məşğulluq idarələrinin və digər müvafiq qurumların təhsil strukturlarında həyata keçirilir və məzunlara müvafiq istiqamətlər üzrə ilk peşə dərəcələrinin verilməsi ilə başa çatır.

20.3. İlk peşə-ixtisas təhsili müvafiq təhsil proqramları əsasında təşkil olunur.

20.4. İlk peşə-ixtisas təhsili müəssisələrinə ümumi orta təhsil bazasında qəbul olunanlar peşə ixtisası ilə yanaşı, tam orta təhsil almaq hüququna malikdirlər.

Maddə 21. Orta ixtisas təhsili

21.1. Orta ixtisas təhsili cəmiyyətin və əmək bazarının tələbatına uyğun olaraq, ümumi orta təhsil və tam orta təhsil bazasında ayrı-ayrı fəaliyyət sahələri üçün müxtəlif ixtisaslar üzrə orta ixtisas təhsilli mütəxəssis hazırlığını təmin edir.

21.2. Orta ixtisas təhsili əsasən kolleclərdə və ali təhsil müəssisələrinin tabeliyində yaradılan müvafiq strukturlarda həyata keçirilir və subbakalavr ixtisas dərəcəsinin verilməsi ilə başa çatır. Ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə daxil olanlar həm də tam orta təhsil alırlar.

21.3. Orta ixtisas təhsili müvafiq təhsil proqramları əsasında təşkil olunur. Orta ixtisas təhsilini başa vuran məzunlara müvafiq qaydada dövlət nümunəli sənəd – diplom verilir.

21.4. Orta ixtisas təhsili haqqında sənəd ali təhsil müəssisəsinə daxil olmaq hüququ yaradır və növbəti təhsil pilləsində ali təhsil almaq üçün əsas sayılır.

21.5. Orta ixtisas təhsili proqramlarının müvafiq ixtisaslar üzrə ali təhsil proqramlarına uyğunluğu təmin edilir və bu təhsil pilləsini yüksək nəticələrlə başa vuran məzunların – subbakalavrların topladıqları kreditlər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada uyğun ixtisaslar üzrə ali təhsil müəssisələrində nəzərə alınır.

Maddə 22. Ali təhsil

22.1. Ali təhsil pilləsində cəmiyyətin və əmək bazarının tələbatı nəzərə alınmaqla yüksək ixtisaslı mütəxəssislərin və elmi-pedaqoji kadrların hazırlığı həyata keçirilir.

22.2. Azərbaycan Respublikasının ali təhsil müəssisələrində mütəxəssislər və elmi-pedaqoji kadrlar hazırlığı üç səviyyəlidir:

22.2.1. bakalavriat (tibb təhsili istisna olmaqla);

22.2.2. magistratura (tibb təhsili istisna olmaqla);

22.2.3. doktorantura.

22.3. Bakalavriat təhsil səviyyəsində tam orta təhsil və orta ixtisas təhsili bazasında ayrı-ayrı ixtisasların təhsil proqramları üzrə geniş profilli ali təhsilli mütəxəssislər hazırlanır. Bakalavriat təhsili başa çatmış ali təhsildir. Bakalavriatı bitirən məzunlara «bakalavr» ali peşə-ixtisas dərəcəsi verilir. Bakalavriat təhsili almış məzunların əmək fəaliyyəti sahəsi elmi tədqiqat və ali təhsil müəssisələrində elmi-pedaqoji fəaliyyət

istisna olmaqla, bütün digər sahələri əhatə edir. Bakalavriat təhsilinin məzmunu və təşkili qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

22.4. Magistratura təhsili ixtisaslaşmalar üzrə hər hansı ixtisas sahəsinin elmi tədqiqat və ya peşəkar məqsədlər üçün daha dərindən öyrənilməsini nəzərdə tutur və məzunlara peşəkar fəaliyyətlə, elmi tədqiqat və elmi-pedaqoji işlərlə məşğul olmaq hüququ verir. Magistratura təhsilinin məzmunu, təşkili və «magistr» dərəcələrinin verilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

22.5. Magistratura elmi-pedaqoji kadr potensialı, maddi-texniki bazası və təhsil infrastrukturu kifayət qədər yüksək olan ali təhsil müəssisələrində yaradıla bilər.

22.6. Tibb təhsili təhsil proqramlarına və dövlət təhsil standartlarına uyğun olaraq, əsas təhsilə və rezidenturaya ayrılır, məzunlara müvafiq olaraq həkim və həkim-mütəxəssis ali peşə-ixtisas dərəcələri verilir. Rezidentura təhsilinin məzmunu və təşkili qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

22.7. Xüsusi qabiliyyət tələb edən və öz xüsusiyyətləri ilə fərqlənən mədəniyyət, musiqi, incəsənət, idman, memarlıq, dizayn və bu kimi digər sahələr üzrə magistr hazırlığı yalnız nəzəri hazırlıq və tədqiqat tələb edən sahələr üzrə həyata keçirilir. Bu ixtisasların siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Maddə 23. Doktorantura

23.1. Doktorantura ali təhsilin ən yüksək səviyyəsi olmaqla elmi və elmi-pedaqoji kadrların hazırlanmasını, ixtisas və elmi dərəcələrin yüksəldilməsini təmin edir.

23.2. Doktorantura təhsili ali təhsil müəssisələrində və elmi təşkilatlarda yaradılan doktoranturalarda (hərbi təhsil müəssisələrində adyunkturalarda) həyata keçirilir və müvafiq elmi dərəcənin verilməsi ilə başa çatır. Elmi dərəcələr ali təhsil müəssisələrində və elmi təşkilatlarda fəaliyyət göstərən dissertasiya şuralarının vəsatəti əsasında qanunvericiliyə uyğun olaraq verilir.

23.3. Azərbaycan Respublikasında aşağıdakı elmi dərəcələr müəyyən edilir:

23.3.1. Fəlsəfə doktoru – elm sahələri göstərilməklə;

23.3.2. Elmlər doktoru – elm sahələri göstərilməklə.

23.4. Doktoranturaların yaradılması, doktoranturaya qəbul və elmi dərəcələrin verilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

23.5. Ali təhsil müəssisələrinin və elmi təşkilatların doktoranturalarına əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin qəbulu Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, habelə ali təhsil müəssisəsi ilə əcnəbi və ya vətəndaşlığı olmayan şəxs arasında ödənişli əsaslarla bağlanan müqavilə əsasında həyata keçirilir.

23.6. Doktoranturada təhsilini başa vurmuş və müvafiq elmi dərəcə almış şəxslərə müəyyən edilmiş qaydada həmin elmi dərəcəni təsdiq edən vahid formada dövlət nümunəli sənəd – diplom verilir.

23.7. Ali təhsil müəssisəsində, elmi və digər təşkilatlarda çalışan elmi-pedaqoji kadrlara elmi dərəcələrin verilməsi dissertantlıq yolu ilə də reallaşdırılır. Ali təhsil müəssisələrinin müvafiq kafedralarına və elmi tədqiqat müəssisələrinə dissertantların təhkim olunması və elmi dərəcələrin verilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

23.8. Ali təhsil müəssisələrinin kadrlarına elmi və pedaqoji fəaliyyət sahəsində əldə etdikləri nəticələrə görə müəyyən edilmiş qaydada elmi adlar verilir. Azərbaycan Respublikasında aşağıdakı elmi adlar müəyyən edilir:

23.8.1. dosent;

23.8.2. professor.

23.9. Dosent və professor elmi adlarının verilməsi qaydaları və şərtləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

23.10. Azərbaycan Respublikasında ali təhsil müəssisəsinin fəxri professor (doktor) adı vermək hüququ vardır. Fəxri professor (doktor) adının verilməsi qaydaları və şərtləri ali təhsil müəssisəsinin nizamnaməsi ilə müəyyən edilir.

Maddə 24. Əlavə təhsil

24.1. Əlavə təhsil fasiləsiz təhsilin və peşə hazırlığının tərkib hissəsi olmaqla, peşə-ixtisas təhsilinin hər hansı pilləsini bitirmək haqqında dövlət sənədi olan hər bir vətəndaşın fasiləsiz təhsil almaq imkanını təmin edir və insan potensialının inkişafı, kadrların intellektual və peşə hazırlığı səviyyəsinin yüksəldilməsi və təkmilləşdirilməsi, onların daim dəyişən və yeniləşən əmək şəraitinə uyğunlaşdırılması, yaşlı vətəndaşların ölkənin sosial, iqtisadi, siyasi və mədəni həyatında fəal və səmərəli iştirakının təmin edilməsi vəzifəsini daşıyır.

24.2. Azərbaycan Respublikasında əlavə təhsil aşağıdakı istiqamətləri əhatə edir:

24.2.1. ixtisasartırma;

24.2.2. kadrların yenidən hazırlanması;

24.2.3. stajkeçmə və kadrların təkmilləşdirilməsi;

24.2.4. təkrar ali təhsil və orta ixtisas təhsili;

24.2.5. dərəcələrin yüksəldilməsi;

24.2.6. yaşlıların təhsili.

24.3. Əlavə təhsilin məzmunu və təşkili qaydaları xüsusi təhsil proqramlarına uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

24.4. Əlavə təhsil ixtisasartırma və yenidənhazırlanma qurumlarında, peşə-ixtisas təhsili müəssisələrində yaradılmış müvafiq strukturlarda, stajkeçmə və peşə hazırlığı kurslarında və bu sahə üzrə fəaliyyətinə xüsusi razılıq verilmiş digər müəssisələrdə həyata keçirilir.

24.5. Müvafiq təhsil proqramları əsasında əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada müvafiq sənəd verilir. İxtisasartırma kurslarını bitirmiş şəxslər barəsində stimullaşdırıcı tədbirlər tətbiq edilir.

Maddə 25. Təhsil sistemində elmi araşdırmalar

25.1. Təhsil sistemində elmi araşdırmalar təhsili idarəetmə orqanları tabeliyində fəaliyyət göstərən elmi tədqiqat strukturlarında, ali təhsil müəssisələrində və onların müvafiq qurumlarında və ya bölmələrində (elmi tədqiqat institutları, mərkəzlər, kafedralar, laboratoriyalar və s.) aparılır.

25.2. Təhsil sistemində aparılan elmi tədqiqat işləri fundamental və tətbiqi xarakter daşıyır.

25.3. Təhsil sistemində elmi araşdırmalar dövlət büdcəsinin vəsaitləri, qrantlar, müxtəlif fondların vəsaitləri, təhsil müəssisəsinin büdcədənkənar vəsaitləri, habelə sifarişlər əsasında daxil olan vəsaitlər hesabına həyata keçirilir.

25.4. Təhsilin inkişaf problemləri ilə bağlı elmi araşdırmalar innovasiya xarakteri daşımaqla, təhsil tarixinin öyrənilməsinə, təhsilin təşkilinin və idarə olunmasının təkmilləşdirilməsinə, tədris prosesinin müasir metodlarla qurulmasına, tədrisin yeni texnologiyalarının və digər istiqamətlər üzrə pedaqoji innovasiyaların hazırlanmasına və tətbiqinə yönəldilir.

Maddə 26. Ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulunun ümumi qaydaları

26.1. Ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu vətəndaşların təhsil hüququnu tam təmin etməklə, müvafiq təhsil səviyyəsinə uyğun olan təhsil proqramlarını daha yaxşı mənimsəmiş qabiliyyətli və hazırlıqlı abituriyentlərin ixtisası və təhsil müəssisəsini sərbəst seçimi əsasında, bu Qanunun 26.5-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, müsabiqə yolu ilə həyata keçirilir.

26.2. Ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu biliyin qiymətləndirilməsi üzrə keçirilən imtahanlarda abituriyentlərin əldə etdikləri nəticələrə əsasən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada həyata keçirilir.

26.3. Hər bir təhsilalan, valideyn və ya digər qanuni nümayəndə ali və orta ixtisas təhsili müəssisəsində tədris prosesini tənzimləyən aşağıdakı hüquqi sənədlərlə tanış ola bilər:

26.3.1. təhsil müəssisəsinin nizamnaməsi;

26.3.2. təhsil sahəsində fəaliyyət üçün xüsusi razılıq (lisenziya);

26.3.3. təhsil müəssisəsinin dövlət akkreditasiyası haqqında sənəd.

26.4. Ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu zamanı abituriyentlərin əvvəlki təhsil pilləsində əldə etdikləri nailiyyətlər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada nəzərə alınır.

26.5. Dünya fənn olimpiadalarının, yüksək səviyyəli beynəlxalq müsabiqələrin və yarışların qalibləri müvafiq ixtisaslar üzrə ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunurlar. Bu olimpiadaların, beynəlxalq müsabiqələrin və yarışların siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

26.6. Ali təhsil müəssisələrinin magistraturalarına bakalavrların və digər ali təhsilli şəxslərin qəbulu müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir.

Maddə 27. Təhsil haqqında dövlət sənədi

27.1. Azərbaycan Respublikasında təhsil fəaliyyəti üçün xüsusi razılığı (lisenziyası) olan və dövlət akkreditasiyasından keçmiş təhsil müəssisəsində təhsilin hər hansı pilləsini və səviyyəsini bitirən şəxslərə qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq təhsil haqqında dövlət sənədi verilir.

27.2. Təhsil haqqında dövlət sənədi növbəti pillədə və səviyyədə təhsili davam etdirmək və ya ixtisas üzrə əmək fəaliyyətinə başlamaq üçün əsas sayılır.

27.3. Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada arayış verilir.

27.4. Xarici ölkələrdə verilən təhsil haqqında sənədlərin tanınması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada həyata keçirilir.


Maddə 28. Təhsil müəssisəsində iaşə və tibb xidməti

28.1. Təhsil müəssisəsində iaşə və tibb xidməti müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada və normalara uyğun təşkil olunur.

28.2. Təhsil müəssisəsində iaşə xidməti təhsil müəssisəsi ilə iaşə xidməti göstərən hüquqi və fiziki şəxslər arasında bağlanan müqavilə əsasında həyata keçirilir.

28.3. Təhsil müəssisəsində təhsilalanlara müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada pulsuz tibbi xidmət göstərilir.

(Ardı gələn nömrədə)



UNİVERSİTƏMİZİN YENİ NƏŞRLƏRİ

"ARXEOLOQUN ÇÖL GÜNDƏLİYİNDƏN"

Xəzər Universitəsi nəşriyyatında tarix elmləri doktoru, Bakı Dövlət Universiteti Arxeologiya və etnoqrafiya kafedrasının müdiri, Beynəlxalq Arxeoloqlar Assosiasiyasının üzvü, görkəmli alim, professor Qüdrət İsmayılzadənin "Arxeoloqun çöl gündəliyindən" kitabı çapdan çıxmışdır.

Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı kitaba ön söz yazmışdır. Onu oxuculara təqdim edirik.

Arxeoloji poema və ya "Arxeoloqun çöl gündəliyindən"



Romantika sevən, təbiətin "yatmış" sirrlərini oyatmaq istəyən, kəşf macərasını yaşamaq arzusunda olan gənclərin geoloq və ya arxeoloq olmaq istəyi hamıya məlumdur. Belə arzunun kökündə çox zaman orta məktəb illərində oxunan populyar və ya bədii ədəbiyyat, bəzən də ağıllı adamların (onlarla təmasda olmaq xoşbəxtliyi nəsib olduğu halda) söylədiyi hekayə və nağıllar dayanır. Bu gənclər işin ağır tərəfini, bu yolda qarşıya çıxan məşəqqətləri, uğursuzluqların uğurdan çox olacağını ağıllarına gətirmir və ya gətirə bilmirlər. Ümumiyyətlə, gəncin gələcək sənətini müəyyən etməsində təsadüflərin də rol oynaya biləcəyi bəllidir. Lakin xəyal gücü böyük olan, şair təbiətli, çalışqan gənclərin gələcəyə gedən yolu seçmələrində sanki öz xəyalında qurduğu dünya və axtarış ehtirası təsadüflərdən daha çox rol oynayır.

Professor Qüdrət İsmayılzadənin "Arxeoloqun çöl gündəliyindən" kitabını oxuyuram. Müəllif peşəkar arxeoloqdur, lakin kitabın böyük hissəsi onun gənclik illərinin bərkiməmiş, amma kağız üzərində ləzzətlə, müqavimətsiz hərəkət edən qələminin məhsuludur. Bu yazılar gənc, amma ağıllı, çox oxumuş, həssas bir insanın ürəyinin hərarəti ilə isinib və düşüncəsinin süzgəcindən süzülüb kağıza.

Bir arxeoloq-alimin sevdiyi peşəsi haqqında gəncliyindən bu günə kimi yazdığı gündəliklərdir qarşımızda. Bir arxeoloqun və bir vətəndaşın həyat salnaməsidir, xatirələridir, həmçinin onu narahat edən düşüncələr toplusudur bu kitab.

Bir çox arxeoloji çöl işində, xüsusən görkəmli arxeoloq A.A. İyessenin ekspedisiyasında arxeoloji qazıntıların hər üzü ilə tanış olan, tarixin torpaq altında gizlənmiş sirlərini açmağa çalışan, çətinlikləri təbii qəbul edən, dərinə getməyin ağır olduğunu yaxşı anlayan gənc Qüdrətə bu istedadlı alimin, müdrik və həssas insanın "siz şeir yazırsınızmı?" deyə sual verməsi nə qədər də təbiidir. Cavabında şeir yazmadığını, amma şeiri çox sevdiyini söyləyən bu gəncin şair ruhunun və yazıçı qələminin məhsuludur bu gündəliklər (və ya gündəliklərin bir hissəsi; kitabın adı - "Arxeoloqun çöl gündəliyindən" sanki bu xatirələrin, gündəliklərin tamamlanmadığına işarədir).

Bu çöl gündəliyində nələrə rast gəlmirik?! "Göydən asılı qalan bənövşəyi qayalar" və... həmən "göydən asılı qalan günəş", "gümüş saplardan toxunmuş qurşağa bənzəyən Araz", "düşün-

cəli dağlar", "şüşələrə sığınan duman". Daş ox ucluğu tapan, sevincdən quş kimi titrəyən bu gənc nə düşünürdü? Ona elə gəlmişdi ki, "qədim ovçunun kamanından çıxmış bu ox həmişə göydə olmuş, minilliklərin üstündən keçərək yalnız bu gün yerə düşmüşdü". Məgər belə deyildimi? Doğrudan da minillərin yaddaşından silinmiş o ovçunu, o oxu bu gənc bir daha unudulmamaq üçün tarixin yaddaşına yenidən qaytarmadımı? "Ölən şəhərin fəxri keşikçiləri" olan sağ qalmış yarıuçuq divarlara söykənən gənc daha nələr düşünürdü?

Gündəliklərdən təbiətin bütün rənglərini görə bilən bir gənc boylanır. Bütün fəsillərin, dağların, çöllərin, yerin, göyün bütün çalarları sanki ona tanışdır. Sanki onun rəssam gözlərinin, şair ürəyinin, alim beyninin yaratdığı, başqalarının görə bilmədiyi xüsusi boyalarla bəzənib bu rəngli mənzərələr və rəngli hisslər.

Arxeoloqun gəzdiyi və qazdığı çöllər maraqlı hadisələrlə, zarafat və macəralarla, yaddaşa hopan zərif hisslərlə də zəngindir. Xaçbulaq yaylağında at üstündə "uzunsov qəşəng siması hamar daranmış qara saçları ilə haşıyələnmiş" qızın çiçəkliyə doğru at çapması lövhəsi bu gəncə nə qədər təsir etmiş ki, "onu əbədiləşdirmək istədim" fikrinə düşmüş və gündəliklərlə sözünə əməl etmiş...Yaxud "Ayradromu atıb iki saatdır ki, işpiyonu", yəni təkbaşına axtarışa çıxan gənci güdən Dəmirxan və ona əsir düşməyə məcbur olan gəncin maraqlı hekayəsi...

"Arxeoloqun çöl gündəliyindən" kitabının müəllifi təbiəti tədqiq edən, təbiəti sevən naturalistdir. Həm filosof kimi uzaqdan düşünməyi bacaran, həm alim pedantlığı ilə arxeoloji məişəti və incəlikləri təsvir edən iti və müşahidəçi ağıl sahibidir. O, arxeologiyanın asan bir iş, romantika olmadığını izah edir, təkrarlayır və onun qayğı və narahatlıqla, bəzən də ağır hisslərlə dolu olduğunu söyləyir. Yağış, leysan altında qalmaq, kölgələnmək üçün yer tapmamaq, yayın cırhacırında kömür tozu uda-uda işləmək, əl-ayağı donmaq - arxeoloqun günləri belə keçir, hər fəslin sevinci ilə yanaşı, çətinliyini və kədərini duymalı olur.

"Dönüb geriyə baxmadan yaşamaq, irəliyə getmək mümkün deyil" fikri onun təkcə peşəkar tarixçi və arxeoloq olmasındanmı doğur? Və ya onun vətəndaş vicdanından, həssas təbiətindən, içindəki məsuliyyət hissindənmi qaynaqlanır qayaüstü rəsmlərin və digər mühüm arxeoloji abidələrin qorunması haqqında dərin narahatlığı? "Əsərlər yazıldı, dissertasiyalar müdafiə olundu, elmi adlar mənimsənildi. Bəs bu abidələrin taleyi?"

Qüdrət İsmayılzadənin həssaslığı, insanlara sevgi və qayğısı, tarixi düşüncəsi bu maraqlı kitabın səhifələrinə hopub. "Doğan günəşin alqırmızı şəfəqləri altında anam müqəddəs bütə dönmüşdü" deyir öz həzin sətirlərində, Xudafərin - körpünün kədəri altında hissə qapılır, arxeoloq müəllimləri, yoldaş və həmkarları haqqında nə qədər geniş ürəklə, hörmət və məhəbbətlə söz açır...Zənnimcə, bir arxeoloji poemadır Qüdrət İsmayılzadənin "Arxeoloqun çöl gündəliyindən" kitabı.

Dünya haqqında təsəvvürlərimizi kökündən dəyişdirən elmlər arasında arxeologiya da var. 19-cu əsrdə ciddi elmə çevrilən və parlaq dövrünü yaşayan arxeologiya dünyəviliyin şüurlarda yer almasında həlledici rol oynadı və tarixin bütün əvvəlki zaman kəsiyi ilə müqayisəyəgəlməz dərəcədə inkişafına böyük töhfə verdi, Xüsusilə Yaxın Şərqdə aparılan qazıntılar tək tarixin mədəni laylarını deyil, beynimizin, düşüncə və dünyagörüşümüzün laylarını, qatlarını açdı.

Qüdrət İsmayılzadə Roza Arazova ilə birlikdə "Azərbaycan Arxeologiyası" jurnalı ideyası ilə mənimlə məsləhətləşməyə gələndə və "olsun!" qərarını verəndə, güman edirəm ki, mən onlardan az sevinmədim. Əmin idim ki, təsis etdiyimiz jurnal yaxşı olacaq. Xəzər Universitəsi Nəşriyyatı jurnalın nəşrini öz öhdəsinə götürdü. Qüdrət müəllim baş redaktor kimi jurnalın elmi səviyyəsini, həmçinin müəyyən dərəcədə maarifçilik missiyasını təmin etmək üçün öz təşkilati qabiliyyətini göstərdi. "Arxeoloqun çöl gündəliyindən" kitabında oxuduğum bəzi fikirləri Qüdrət İsmayılzadə imzası ilə bu jurnalda görmüşdüm. "Arxeoloji poema"nın davam etməsini arzulayıram.

Professor Hamlet İsaxanlı.
May, 2009.

The New Trends of Global Developments and Turkish World

Ph.D. , Associate Professor Eldar Shahgaldiyev
Head of the English Language and Literature Department



Today, the way that Turkey develops and interacts with the outer world is not absolutely the same as it was some 20-30 years ago. It is not only because that Turkey itself has changed together with all its intercations with the outer world, but also for the reasons of cruicial changes inurred in the developmental processes. As the consensus view of the development process disintegrated during the 1970s and 1980s, the content of international development also began to break down. Today there are two competing idealized views of development. The first, the "traditional view," maintains that development is about economic growth, which can be distinguished from other social, cultural, environmental, and political development issues in society. The second, the "modern view," maintains that development is an integrated process of change involving intertwined economic, social, cultural, political, and environmental dimensions. These two views of development lead to different perceptions of the substantive content of development, the importance of sovereignty, and the relationship between national and international law in the law applicable to development

Not since the end of the Cold War, and perhaps not since the early days of the Turkish Republic, has Turkey's external role been characterized by so many open questions:

-What place for Turkey in Europe?
-What risks and opportunities for Turkey in a conflict-ridden Middle East?
-How will Ankara deal with a changing Russia, an unstable Caucasus, and Central Asia?
-To what extent can a traditionally competitive relationship with Greece be moderated, against a background of successive Balkan crises?

Turkey may be a pivotal state in Western perception, but uncertainties in transatlantic relations may make the very concept of the "West" unclear as seen from Ankara.

Above all, Turkey faces daunting political, economic, and social pressures, with implications for the vigor and direction of the country's foreign and security policies. The range of possibilities is now quite wide, from a more globalized Turkey, more closely integrated in Europe and the West, with a multilateral approach toward key regions, to a more inward-looking and nationalistic Turkey, pursuing a more constrained or unilateral set of regional policies.

This article aims at describing the challenges and opportunities facing Turkey in the international environment at a time of extraordinary flux and offers some conclusions about its further possible interactions with the Turkic world. The analysis should be of interest to contribute to informed debate about the country's role in the modern stage of globalization.

As Turkey enters the 21st century, it faces a troubled environment, *domestically* and *internationally.* Uncertainties regarding the country's future and its external policies have increased significantly as a result of Turkey's own economic crises and political turmoil, troubling developments in nearby regions, and challenges further afield.

As a consequence, the task of understanding and assessing Turkey's international role has become more complex and far more difficult.

During the Cold War, Turkey acted as a bulwark against the expansion of Soviet influence into the Eastern Mediterranean and Middle East. With the end of the Cold War, Turkey has become a more assertive and independent actor on the international stage. Where once Turkey primarily looked West, today Turkey is increasingly being pulled East and South as well. As a result, Turkey has been forced to redefine its foreign and

security policy interests and to rethink its international relationships within turkic world too.

If Turkey were a small state located in Antarctica or the South Sea Islands, these changes might matter little. But Turkey stands at the nexus of three areas of increasing strategic importance to the:
(1)United States and Europe,
(2) Balkans, the Caspian region, and
(3) Middle East.

Thus, how Turkey evolves is important, both to the United States and to Europe. Turkey's sheer size, moreover, gives it important geostrategic weight. Turkey's population is currently about 68 million—the second largest in Europe behind Germany—and may be close to 100 million by the middle of the 21st century.

Changes in the international environment are placing new pressures on Turkish policymakers and the Turkish public and are having important effects on Turkish policy. This is particularly true given the magnitude and rapidity of developments in adjacent regions, whether in the Balkans, the Caucasus, or the Middle East.These pressures alone would be stressful for Turkish foreign and security policymaking, which has a tradition of marked conservatism.

At the same time, Turkey confronts changes on the domestic scene that are arguably even more significant in their foreign and security policy implications. Turkey remains embroiled in a severe economic crisis that most Turks view as political at its base. *The way Turkey responds to these economic and political challenges will shape Turkish society, perhaps for decades to come.* It particularly refers to the determinations that Turkey makes in terms of Daglig Karabakh issue. The diachotomy faced nowadays in the Caspian reagion, nowadays is a great testimony to the sitations aforementioned. The further actions do not only need fast decisions, but also the harmonised and comprehensive approaches in all matters. It will also be a leading determinant of Turkey's freedom of action and the direction of Turkish policy on the international scene during the global developments in the coming years. That is why the developmental processes, not only in the sphere of economy, but in the areas of harmonized policy pursued between domestic and foreign policies will probably explore key issues at the nexus of internal change and Turkey's foreign and security policy behavior, against a background of economic and political turmoil. These include the future of the state, the rise of new political and economic actors, the changing role of public opinion, the primacy of internal security considerations in Turkish policy, and the future role of Turkey's Islamists and nationalists.

The relationship with the United States has been a key aspect of Turkey's foreign and security policy since 1945. Despite fears on both sides that this "strategic relationship" would become less strategic and less important with the end of the Cold War, the relationship has retained its significance for both countries. Indeed, the relationship has arguably acquired even greater significance in the post–Cold War strategic environment—a significance underscored by events since the terrorist attacks of September 11, 2001, and the looming confrontation with Iraq. This sustained importance reflects the unsettled character of regions surrounding Turkey and the primacy of these regions in today's security calculus. It is also a reflection of the changes in Turkish society, the influence these changes have had in the way America sees Turkey, and in Turkey's ability to play a larger regional role.

In the broadest sense,Turkey'srelationship with the United States is also linked to Turkish perceptions of globalization, a phenomenon closely associated with America's political and economic role.

The bilateral relationship remains heavily focused on security matters, and for good reasons given the character of the environment facing Turkey and the proximity of areas where American security interest are engaged. This is particularly true in relation to places such as Afghanistan, the Caucasus, and Central Asia—areas at the nexus of American counterterrorism and regional security strategies.

Nonetheless, the relationship faces pressures for diversification, and there are substantial, relatively underdeveloped opportunities to extend bilateral cooperation on investment, trade, and the nonsecurity or "soft" security aspects of regional policy.

In the last decade Turkey has emerged as a more active and important actor on the international stage. After the collapse of the Soviet Union, Turkey rediscovered a world of interests and affinities stretching "from the Balkans to Western China"—areas that had been largely absent from the mainstream Turkish fore-

ign policy debate.

Recently, we have started to feel more activism on the increase of Turkish external policy. With few exceptions, this activism has been evident largely in traditional areas of interest such as Europe, as well as areas of perceived risk, above all the Middle East.

Turkey is, at base, a conservative society with a conservative approach to public policy in most spheres. Almost 80 years after the founding of the Turkish Republic this remains true. However, Turkey today is in the midst of a period of important political change that could have a profound effect on its foreign policy evolution. Azerbaijan, Middle Asia and the other islamic countries want to more rigorously be interrelated with the socio-economic and cultural values of Turkey and Turkish world, and for that reason they are looking ahead that several significant, open questions will shape the Turkish foreign and security policy debate. They will also shape to a considerable extent the character of Turkish relations with the West. These key questions concern the future shape of Turkey as a society, Turkey's international identity, its regional behavior, and its place in a globalized world.

As a matter of fact, nowadays simultaneously with the burgeoning of Turkey's power, most of Turkey's neighbors have declined in strength. Of those that pose potentially the most immediate security problems for Turkey–Russia, Iran, Iraq, and Syria–all have seen their economic and military fortunes sink in the 1990s. Greece, Turkey's neighbor and NATO ally, probably also deserves inclusion in any list of Turkey's most immediate security threats. Although it does not fit the pattern of a declining power, Greece has a much smaller population base (11 million) than does Turkey (68 million) and thus probably would find it difficult indefinitely to maintain parity with Turkey's growing strength.

Turkey was the first state to recognize the independence of all the former Soviet states, and it did so even before the formal collapse of the Soviet Union. Ankara has not succeeded in establishing a full-blown Turkish "sphere of influence" in the Turkic states of the former Soviet Union, as initially had been envisioned. However, it has established the basis for greater influence in the region with relatively significant trade relations, energy projects, people-to-people efforts, and a near-annual Turkic summit.

The countries of G8's concern about Balkan instability, Russia's future direction, Iranian fundamentalism, Iraqi aggression, and the durability of the Middle East peace process all create the likely situation in Turkey, especially for its policymakers to reinforce its close relations in these areas.

The military, of course, is often a dominant player in Turkish foreign policy. Institutionally, it exercises its influence primarily through the National Security Council (NSC), half the members of which are military leaders. Much of the military's authority derives from its moral leadership, particularly when military and security (including domestic security) issues are at stake, and from its ability to intimidate, based on its historic interventions in Turkish politics. It is widely assumed, for example, that the military takes the lead in decisions regarding Turkish policy in northern Iraq and the fight against the PKK.

Much of Turkish determination in foreign-policy decision-making is shrouded in secrecy. The primary reference points now seem to be the presidency, prime ministry, and military, with the foreign ministry nevertheless still an important player. Which takes the lead in a crisis seems to be a matter of personality, political circumstance, and the issue at hand to be handled in the Caucasus region.

Taken together, a post-Cold War Turkish foreign policy that is increasingly bold, multi-directional, as Turkey becomes a more prosperous, militarily formidable power among neighbors mostly in decline. But all these feature still do not exclude the conditions where Turkey should have an exceptional ability in the regional conflict management issues.

Turkey is also expected to play a worthywhile role in the Turkish world at least in two more issues –in to the "movements for redefining the internal boundaries of the nation" and "in the movements to secede from the nation-state" These both processes have their places in the current history of the Turkish world which need maximum determination and integrity form Turkey in their foreign policy support rendered to the countries to solve these problems.Daglig karabakh is also among these issues,and needs its immediate solution.

KHAZAR UNIVERSITY

Courses for Fall Semester, 2009

English Language & Literature Departament

Code	Course	Instructor	Credits	Language	Note
		Undergraduate Study (BS)			
ENGL-202	Advanced English Vocabulary	Eldar Shahgaldiyev Ph.D	3	English	ME
ENGL-102	Reading 1 (SHSS) AB	Firangiz Nassirova MA	3	English	UR
ENGL-101	Writing 1 (SHSS) AB	Shafag Babayeva MA	3	English	UR
ENGL-201	Grammar pre-adv SHSS A/C	Milana Nabiyeva MA	3	English	MR
ENGL-601	Principles of TESL	Lydia Gamidova MA	3	English	ME
ENGL-202	Advanced English Vocabulary	Lydia Gamidova MA	3	English	ME
ENGL-202	Grammar adv AB	Gunel Mammadova MA	3	English	MR
ENGL-201	Grammar pre adv B	Gunel Mammadova MA	3	English	MR
ENGL-101	Writing 1 (SHSS) CD	Arzu Guliyeva MA	3	English	UR
ENGL-104	Reading 2 (Engin) A	Sevda Ismayilova MA	3	English	UR
ENGL-101	Writing 1 (EDU) A	Sevda Ismayilova MA	3	English	UR
ENGL- 216	ESP Education	Sabina Kerimova MA	3	English	UR
ENGL-104	Reading 2 (SHSS)AB	Tarana Boyukzade MA	3	English	UR
ENGL-104	Reading 2 (SHSS) CD	Aysel Azimova MA	3	English	UR
ENGL-608	Trans & Int. theory	Irina Orujova MA	3	English	ME
ENGL-317	History of Eng	Irina Orujova MA	3	English	MR
ENGL-206	ESL Pre adv A	Irina Orujova MA	3	English	UR
ENGL-206	ESL pre advanced C	Irina Orujova MA	3	English	UR
ENGL-102	Reading 1 (Engin) A	Rasmiyya Badirova MA	3	English	UR
ENGL-216	ESP (SHSS)	Rasmiyya Badirova MA	3	English	UR
ENGL-309	Composition B	Nushaba Mammadova MA	3	English	MR
ENGL-335	Academic Writing AB	Nushaba Mammadova MA	3	English	MR
LING-607	Linguistics (Trends & Method).	Jala Garibova Ph.D	3	English	ME
ENGL-321	Tran Practice-1	Ramilla Mammadova Ph.D	3	English	MR
ENGL-324	Tran Practice-2	Ramilla Mammadova Ph.D	3	English	MR
ENGL- 326	American Studies	Khayala Mammadova MA	3	English	ME
ENGL-102	Reading 1 (Engin) B	Samira Hajizadeh MA	3	English	UR
ENGL-104	Reading 2 (Engin) B	Samira Hajizadeh MA	3	English	UR
ENGL-102	Reading 1 (EDU) A	Khalida Gasimova MA	3	English	UR
ENGL-101	Writing 1 (Engin) C	Khalida Gasimova MA	3	English	UR
ENGL-103	Writing 2 (SHSS) A	Hamiya Bakhishova MA	3	English	UR
ENGL-102	Reading 1 (Engin) C	Hamiya Bakhishova MA	3	English	UR
ENGL-102	Reading 1 (Econ)	Afat Alakbarova MA	3	English	UR
ENGL-101	Writing 1 (Econ)	Afat Alakbarova MA	3	English	UR
ENGL-216	ESP (Econ)	Afat Alakbarova MA	3	English	UR
ENGL-102	Reading 1 (Econ)	Saadat Farhadova MA	3	English	UR
ENGL-101	Writing 1 (Econ)	Saadat Farhadova MA	3	English	UR
ENGL-216	ESP (Econ)	Saadat Farhadova MA	3	English	UR
ENGL-104	Reading 2 (Econ)	Gulnar Aghayeva MA	3	English	UR
ENGL-103	Writing-2 (Econ)	Gulnar Aghayeva MA	3	English	UR
ENGL-102	Reading 1 (Econ)	Gulnar Aghayeva MA	3	English	UR
ENGL-101	Writing 1 (Econ)	Gulnar Aghayeva MA	3	English	UR
ENGL-103	Writing 2 (SHSS) B	Rahila Garibova MA	3	English	UR
ENGL-206	ESL Pre advanced B	Rahila Garibova MA	3	English	UR

ENGL-322	Lexicology	Tofig Abasguliyev-Ph.D	3	English	MR
ENGL-416	Survey to British Lit-1	David Draper MA	3	English	MR
ENGL-325	Communication English	David Draper MA	3	English	ME
ENGL-216	ESP Engineering AB	Asif Hashimov MA	3	English	UR
ENGL-309	Composition A	Asif Hashimov MA	3	English	MR
ENGL-417	World Literature	Marie Pickford MA	3	English	ME
ENGL-217	ESL Advanced	Ian Peart MA	3	English	MR
ENGL-102	Reading 1 (SHSS) CD	Gülnaz Hajiyeva MA	3	English	UR
ENGL-103	Writing 2 (SHSS) C	Jale Ibrahimova MA	3	English	UR
ENGL-103	Writing 2 (Engin) A	Jale Ibrahimova MA	3	English	UR
ENGL-101	Writing 1 (Engin) B	Jale Ibrahimova MA	3	English	UR
ENGL-103	Writing 2 (Engin) B	Esmira Ramazanova MA student	3	English	UR
ENGL-101	Writing 1 (SHSS) E	Parvin Kerimova MA student	3	English	UR
ENGL-102	Reading 1 (SHSS) E	Parvin Kerimova MA student	3	English	UR
ENGL-101	Writing 1 (Engin) A	Ulker Kazimova MA student	3	English	UR
ENGL-315	English through films	Kamran Nasirov	3	English	ME

Note: **UR**-University Requirement; **MR**-Major Required; **ME**-Major Elective

School of Architecture, Engineering and Applied Science

Code	Course	Credits	Instructor	Language	Note
Undergraduate Study (BS)					
MATH 101	Calculus 1	3	Asif Nabiyev Vugar Aliyev	Az/Rus	GER
MATH 310	Applied Differential Equations	3	Nigar Aslanova	English	Major
PHSC 111	Physics 1	3	Hikmat Hasanov (lec.) Nuru Safarov (lab.)	English	Major
CHEM 111	Chemistry 1	3	Ziyafaddin Asadov	English	Major
CMS 101	Introduction to Computer Science	3	Etibar Rzazada	Az/Rus	GER
CMS 272	Computer Application in Business	3	Etibar Rzazada	English	Major
CMS 204	C-Programming	4	Aygun Alasgarova	English	Major
CMS 420	Object-Oriented Programming	4	Sakhavat Talibov	English	Major
CMS 316	Database Management Systems	4	Leyla Muradkhanli	English	Major
CMS 350	Computer Graphics	3	Sakhavat Talibov	English	Major
EENG 211	Circuits Theory	4	Rafig Ahmadov	English	Major
ENGR 203	Strength of Materials	3	Valeh Bakhshaliyev	English	Major
ENGR 210	Fluid Mechanics	3	Hikmat Hasanov	English	Major
PETE 202	Physics of Oil and Gas Reservoirs	3	Rafig Gurbanov	English	Major
GEOL 102	Geology for Civil Engineers	3	Gasham Zeynalov	English	Major
MGT 310	Management and Organization	3	Khumar Huseynova	English	Major
ECON 201	Principles of Microeconomics	3	Rafig Gurbanov	English	Major
ENGL 216	English for Specific Purposes (ESP)	3	Asif Hashimov	English	UR
AZLL 105	Azerbaijani Literature	3	Aydinxan Abilov	Az/Rus	UR
AZC 202	Azerbaijani Culture	3	Faculty	Az/Rus	UR
HIST 110	History of the World Civilizations	3	Roza Arazova	Az/Rus	GER
	Life Science	3	Faculty	Az/Rus	GER

Graduate Study (MS)					
CMS 530	Advanced Computer Graphics	3	Sakhavat Talibov	English	Major
CMS 548	Advanced Object-Oriented Programming	3	Sakhavat Talibov	English	Major
PETE 501	Enhanced Oil Recovery	3	Rafig Gurbanov	English	Major
PETE 517	Design of Development of Oil and Gas Reservoirs	3	Kamala Jafarova	English	Major
MGT 850	Operetions Management	3	Khumar Huseynova	English	Major

School of Economics and Management

Code	Course	Instructor	Credits	Language	Note
Undergraduate Study (BS)					
ENGL 101	Writing-1	Afat Alakbarova, Saadat Farhadova, Gulnar Agayeva	3	Engl.	UR
ENGL 102	Reading-1	Afat Alakbarova, Saadat Farhadova, Gulnar Agayeva	3	Engl.	UR
ENGL 103	Writing 2	Gulnar Agayeva	3	Engl.	UR
ENGL 104	Reading 2	Gulnar Agayeva	3	Engl.	UR
ENGL 214	ESP	Afat Alakbarova, Saadat Farhadova	3	Engl	UR
BSA 101	Introduction to Business	Fuat Rasulov	3	Az.	MAJOR
CMS 101	Introduction to Computer Science	Fuad Afandiyev	3	Engl.	GER
AZLL 101	Azerbaijan Language	Elza Ismayilova	3	Az.	UR
LAW 220	Family Law	Akif Alizade	3	Az.	GER
LAW 305	Business Law	Fuat Rasulov	3	Engl.	Major
AZC d	Classic Music	Yagana Akhundova	3	Az.	UR
ECON 202	Macroeconomics	Rovshan Guliyev,Ramin Danyarov	3	Engl.	MAJOR
ACC 210	Financial Accounting	Mahammad Hashimov	3	Engl.	MAJOR
BSA 250	Business Statistics	Khanim Jafarova.Hikmet Tagiyev	4	Engl.	MAJOR
MGT 330	Management	Khumar Huseynova	3	Engl.	MAJOR
TURK 210	Turkic World Culture	Zulfiyya Valiyeva	3	Az.	GER
GERM 201	Elementary German	Abbas Abbasov	3	German	GER
FREN 201	Elementary French	Faramaz Baghirov	3	French	GER
ACC 310	Managerial Accounting	Syed Ali Mahammad	3	Engl.	MAJOR
FIN 310	Fundamentals of Financial Management	Kamran Madjidov, Elkhan Abbasov	3	Engl.	MAJOR
FIN 420	Investment Management	Ramin Alakbarov	3	Engl.	MAJOR
MGT 440	Operations Management	Khumar Huseynova	3	Engl.	MAJOR
IB 410	International Business	Aygul Isayeva	3	Engl.	MAJOR
ACC 425	Financial Reporting	Yashar Nagiyev	3	Engl.	MAJOR
MGT 410	Organizational Behavior	Bagir Akhundov	3	Engl.	MAJOR
MGT 330	Business Communications	Raziya Isayeva	3	Engl.	MAJOR
MKT 301	Principles of Marketing	Murad Tahirov, Aygul Isayeva	3	Engl.	MAJOR
BSA 210	Computer Application in Business	Kamala Abbasova	3	Engl.	MAJOR

MATH101	Calculus	Asif Nabiyev,Khanim Jafarova	3	Engl.	MAJOR
MGT 450	HR Management	Bagir Akhundov	3	Engl.	MAJOR
IT 420	Information Technology	Vagif Salimov	3	Engl.	MAJOR
IB 405	International Firms	Elman Feyziyev	3	Engl.	MAJOR
FIN 465	Risk Management	Jamal Guliyev		Engl.	MAJOR
FIN 425	Commercial and Investment	Rustam Tahirov	3	Engl.	MAJOR
	Banking				
MGT 455	Entrepreneurship & Innovation Management	Fuat Rasulov	3	Engl.	MAJOR
ACC 450	Auditing	Mahammad Hashimov	3	Engl.	MAJOR
FIN 470	International Finance	Nigar Ismayilova	3	Engl.	MAJOR
MKT 850	International Marketing	Murad Tahirov	3	Engl.	MAJOR
FIN 410	Financial Management II	Afgan Afganli	3	Engl.	MAJOR
MKT 440	Business to Business Marketing Strategy	Natalia Corobco	3	Engl.	MAJOR
IB 450	WTO and International Trade Opportunities for Azerbaijan	Fikret Pashayev	3	Engl.	MAJOR
ECON 425	Environmental Economics	Rovshan Abbasov	3	Engl.	MAJOR
		Graduate Study (MS)			
ACC 801	Financial Accounting	Syed Ali Mahhamad	3	Engl.	MAJOR
MGT 800	Applied Business Statistics	Gursel Aliyev	3	Engl.	MAJOR
MGT 850	Operations Management	Ramin Alakbarov	3	Engl.	MAJOR
ECON 830	Managerial Economics	Ramin Alakbarov	3	Engl.	MAJOR
MGT 830	Organizational Behavior	Raziya Isayeva	3	Engl.	MAJOR
EMGT 810	Economics of Energy	Ingilab Ahmadov	3	Engl.	MAJOR
EMGT 840	Caspian Energy Geopolitics and Global Energy Security	Fikret Pashayev	3	Engl.	MAJOR
LAW 840	Entrepreneurship Law	Alakbar Mammadov	3	Engl.	MAJOR

School of Humanities and Social Sciences

Code	Course	Instructor	Credits	Language	Note
	Undergraduate Study (BS)				
ENGL 309	1. English Composition	B-Nushaba Mammadova,A-Marie Pickford	3	English	MR
ENGL 311	2. Survey of British Literature-1	David Draper	3	English	MR
ENGL 322	3. Lexicology	Tofig Abbasquliyev	3	English	MR
	4. Advanced English Vocabulary	B-Lidiya Hamidova/A-Eldar Shahgaldiyev	3	English	ME
ENGL 326	5. American Studies	Khayala Mammadova	3	English	ME
ENGL321	6. Translation practice-1	Ramila Mammadova	3	English	MR
ENGL 325	7. Communicative English	David Draper	3	English	ME
ENGL 335	8. Academic Writing	Nushaba Mammadova	3	English	MR
ENGL 315	9. English through films	Kamran Nasirov	3	English	ME
ENGL 324	10. Translation Practice-2	Ramila Mammadova	3	English	MR
ENGL 317	11. History of English Language	Irina Orujova	3	English	MR
AZLL 101	12. Azerbaijani Language-1	Elza Ismayilova	3	Azeri	UR
AZLL 104	13. Azerbaijani Language-2(failed)	Elza Ismayilova	3	Azeri	MR
AZLL 105	14. Azerbaijani Literature-1(failed)	Dilbar Zeynalova	3	Azeri	UR
AZLL 205	15. Azerbaijani Literature-2	Dilbar Zeynalova	3	Azeri	MR
AZH 150	16. Azerbaijani History	Roza Arazova	3	Azeri/ Rus	UR
HIST 144	17. Modern History of European Countries	Araz Aslanly	3	Azeri/ Rus	MR
JOUR 310	18. Genres of Journalism	Knyaz Aslan	3	Azeri	MR
JOUR 101	19. Introduction to Journalism	Jabir Mammadov	3	Azeri	MR
JOUR 203	20. News Writing	Vusal Mammadov	3	Azeri	MR
ITAL 201	21. Italian-1	Kamala Aliyeva	3	Italian	GER
RUSS 201	22. Russian-1	Aziza Balakishiyeva	3	Russian	GER
FREN 201	23. French-1	Faramaz Bagirov	3	French	GER
GER 201	24. German-1	Rena Huseynova	3	German	GER
PERS 206	25. Persian-1	A,B-Zivar Huseynova	3	Persian	MR
ARAB 206	26. Arabic-1	A,B-Tarana Akbarova	3	Arabic	MR
ARAB306	27. Arabic-3	Ulkar Abuzarova	3	Arabic	MR
ARAB 307	28. Arabic-4	Kamala Hasanaova	3	Arabic	MR
PERS 306	29. Persian-3	Kamala Hasanaova	3	Persian	MR
JAPAN-1	30. Japanese-1	Jamila Bakikhanova	3	Japan-e	GER
	31. Religion and Globalization	Dobroslava Viktor	3	English	Elective
	32. Ethics of Islam	Elnura Azizova	3	Azeri	Elective
PHIL 417	33. Philosophy of Religion	Mail Yagubov	3	Azeri	Elective
PHIL 218	34. Philosophy	Aghalar Mammadov	3	Azeri	MR
SOC 360	35. Marriage and Family	Murad Tagiyev	3	English	Elective
PLTS 110	36. Introduction to Political Science	Kenan Allahverdiyev	3	Azeri	MR
PLTS 120	37. History of Political Theories	Kenan Allahverdiyev	4	Azeri	MR
PLTS 230	38. Modern Political Theories	Kenan Allahverdiyev	4	Azeri	MR
PLTS 240	39. Comparative Politics	Mikayil Yusifov	4	English	MR

INTR 215	40. Theory of International Relations	Vusal Behbudov	4	English	MR
INTR 340	41. Foreign Policy of Azerbaijan	Mikayil Yusifov	4	English	MR
INTR 310	42. Modern Diplomacy	Baba Bayramli	4	English	MR
ENGL 417	43. World Literature	Ian Peart	3	English	ME
JOUR 407	44. TV and Radio Speech Culture	Asmar Yusifzada	3	Azeri	ME
ARAB 406	45. Arabic-5	A-Z.Huseynova,B-Elman N	3	Arabic	MR
PERS 406	46. Persian-5	A,B-Elman Novruzov	3	Persian	MR
ARAB 408	47. Communicative Arabic	Faculty	3	Arabic	ME
PERS 408	48. Communicative Persian	Faculty	3	Persian	ME
PLTS 460	49. Research Methods in Political Science	Sevinj Asgarova	4	English	MR
INTR 460	50. Foundation of Security Studies	Rashad Huseynov	4	English	MR
Graduate Study (MS)					
TESL 601	51. Principles of TESL	Lidiya Hamidova	3	English	ME
LING 607	52. Linguistics: Trends and Methods	Jala Garibova	3	English	ME
ENGL 608	53. Translation and Interpreting Theory	Irina Orujova	3	English	ME
INTR 504	54. European Union Law	Agne Limante	4	English	MR

School of Medicine, Dentistry and Public Health

Code	Course	Credits	Instructor	Language	Note
	Azerb. History	3	**Roza Arazova , Gunel Rahmanzade**	**Azerb., English**	**UR**
BIOMED305	**Pat.Phys 2**	**3**	**Khuraman Aliyeva Elchin Zeynalov**	**Azerb., English**	**MAJOR**
	Immunology 1,2	**3**	**Elchin Zeynalov Khuraman Aliyeva**	**English**	**MAJOR**
BIOMED300	**Clinical Biochemistry2**	**2**	**Azizova Gulnara**	**English**	**MAJOR**
BIOMED503	**Lab.Diagnostics**	**3**	**Dilshad Aliyeva**	**2Azeri**	**MAJOR**
BIOMED306	**Medical genetics 1,2**	**3**	**Tarana Gadirova**	**English**	**MAJOR**
MED411	**General Epidemiology**	**3**	**Suleymanli Erkin**	**Azerb**	**MAJOR GER**
MED 412	**General and Social Hygiene**	**3**	**Suleymanli Erkin**	**English**	**MAJOR**
BIOMED310	**Radiology**	**3**	**Karakashly Jamil**	**English**	**MAJOR**
MED408,502	**Internal diseases 3,5-**	**5**	**Natavan Faradjeva Rena Kerimova**	**Azerb, Rus**	**MAJOR**
MED407	**Surgery**	**5**	**Rauf Shahbazov, Nadir Zeynalov**	**Azery, English**	**MAJOR**
MED 304	**Pharmacology1,2**	**3**	**Farid Aliyev. Sabuhi Abilov**	**Azery, Rus**	**MAJOR**
MED508	**Operative Anatomy**	**4**	**Akperov Elcin**	**English**	**MAJOR**
DEN409	**Neurology**	**3**	**To be arrange**		**MAJOR**
MED507	**Gynecology 1**	**3**	**Elena Smirnova Mehman Namazov**	**English Azerb**	**MAJOR**

MED512	Ortopedics and Traumotology	3	Namig Nadirov	English	MAJOR
MED510	Anesthesiology and Reanimation	3	Taziba Mirzaliyeva	English	MAJOR
MED 302	Medical Psihology	3	Murad Tagiyev	English	MAJOR GER
BIOMED312	Hematology	3	Geyrat Imamaliyev	English	MAJOR
MED521	Cardiology	3			
MED509	Otolaryngology	3	Arina Guliyeva	English	MAJOR
MED410	Curt Medicine	3	Tair Gadjili	English	MAJOR
MED514	Functional diagnostics	3	Kamal Akperov	English	MAJOR
MED504	Ophthalmology	3	To be arrange	English	MAJOR
MED421	Clinical Pharmacology	3	Kerimova Rena Farid Aliyev, Sabuhi Abilov	English Azerb, Rus	MAJOR
MED 525	Neyrophysiology (elective course)	1.5	Elena Smirnova	English	MAJOR
MED526	" Disease Prevention and Health Promotion	3	Mohammad Shahbazi	English	MAJOR
MED 527	"Medical Anthropology and Public Health".	3	Mohammad Shahbazi	English	MAJOR
	Neonatology and Embryology	1.5	Elena Smirnova	English	MAJOR
DEN403	Ortopedics	3	To be arrange	Azerb.	MAJOR
DEN413	Stom therapy2	3	To be arrange	Azerb.	MAJOR
DEN414	Ortodontics	3	To be arrange	Azerb.	MAJOR
	Stom. Surgery	3	To be arrange	Azerb	MAJOR
	Practical Rotation: ENT, Internal Diseases(Urology, Pulmanology, Tuberculosis, Endocrinology), Operative Surgery Functional Diagnostics, Stom.terapy, Stom surgery				

School of education

Code	Course	Instructor	Credits	Language	Note
Undergraduate Study (BS) Elementary Education					
ENGL 101	Reading-I	Khalida Gasimova	3	English	UR
ENGL 102	Writing-I	Sevda Ismayilova	3	English	UR
CMS 101	Introduction to Computer Science	Konul Ahmedova	3	Azeri	GER
HIST 208	Azerbaijan History	Gunel Mammadova	3	Azeri	UR
ENGL 214	ESP	Sabina Karimova	3	English	UR
SPH 202	Basics of Speech Habits	Rafig Hashimov	2	Azeri	MAJOR
SCİ 101	The Earth and Space Science	Hikmat Hasanov	3	Azeri	GER
PSYC 304	Basics Educational Psychology	Elmira Mirzayeva	3	Azeri	MAJOR
	Life Science	Khuraman Aliyeva	3	Azeri	GER
	Practicum	Elmira Mirzayeva	12	Azeri	MAJOR
EDU 402	Methods Teaching of Descriptive Art	Rena Musayeva	3	Azeri	MAJOR

Undergraduate Study (BS) Azerbaijan Language and Literature					
AZLL 206	Modern Azerbaijan Language-III (Syntax)	Reyhan Medetova	3	Azeri	MAJOR
AZLL 107	History of Azerb. LiterLiterature-1	Vurgun Eyyub	3	Azeri	MAJOR
LIT 305	World Literature-II	Fərhad Huseynzade	3	Azeri	MAJOR
AZLL 109	History of Azerbaijan Literature-3	Vurgun Eyyub	3	Azeri	MAJOR
AZLL 306	History of the Azerb. Literary Language	Reyhan Mədətova	3	Azeri	MAJOR
EDU 408	Teaching Methods of the Azerb. language	Gultekin Binnatova	3	Azeri	MAJOR
LIT 405	Fundamentals of Literary Critics	Aydın Abilov	3	Azeri	MAJOR
Graduate Study (MS) Linguistic and Literature					
LIT 505	Modern Literary Proceses	Vurgun Eyyub	3	Azeri	MAJOR
LIT 507	Literary Critique	Aydın Abilov	3	Azeri	MAJOR
LIT 526	Immigrant Literature	Dilber Zeynalova	3	Azeri	MAJOR
TURK 305	Comprative Grammer of Turkic Languages	Elza Samedova	3	Azeri	MAJOR
AZLL 406	Historical Azerbaijani Grammer	Reyhan Madatova	3	Azeri	MAJOR
AZLL 512	Azerbaijan Dialectology	Reyhan Madatova	3	Azeri	MAJOR

GOOD LUCK!

POEZİYA

Kamil İsmayıl



İsmayılov Kamil İsmayıl oğlu. 1955-ci il iyunun 13-də Yevlax rayonunun Yəldili kəndində anadan olmuşdur. 1962-1972-ci illərdə Yevlax şəhərindəki 2 nömrəli orta məktəbdə oxumuş, 1982-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun sənayenin iqtisadiyyatı fakültəsini bitirərək, iqtisadçı ixtisasına yiyələnmişdir. Hazırda öz ixtisası üzrə çalışır. Şeirləri mətbuatda dərc olunur.

Kosalı

Ərənləri qeyrətindən güc alıb,
Qılınc çalıb, tüfəng atıb, öc alıb,
Sınaqlardan çıxa-çıxa qocalıb,
Yenilməyən mərd qaladı Kosalı.

Cənnət eli, gözəlliyin məskəni,
Bu zövq-səfa çaşdırmayıb tək səni,
Heyran edir mehman olub gedəni,
Gözəllikdə bir sonadı Kosalı.

Gələn düşür sazın-sözün sehrinə,
Istiqanlı insanların mehrinə,
Dəyişmərəm dünyanın yüz şəhrinə,
Dünya yana, bir yanadı Kosalı.

Torpağının gücündədir bəhrə-bar,
Bu yerdədir saf məhəbbət, düz ilqar,
Dədə Camal, Hamlet kimi oğlu var,
Hər oğlunu yüz sınadı Kosalı.

Qara Xaçda at oynadıb ərənlər,
El uğrunda canı qurban verənlər,
Danışırlar İsaxanı görənlər,
Həm əhdiydi, həm də andı Kosalı.

Açılmayan neçə-neçə sirri var,
Zəhmətsevər övladları bəxtiyar,
Səfalı Təhləkənd, Nazarlı, Candar,
Hər birinin qol-qanadı Kosalı.

Toy-büsatdı Qarayazı elində,
Aslan coşub, telli saz da əlində,
Nə xoşbəxtdi bu gün bəy də, gəlin də,
Kamil deyir bir anadı Kosalı.

Bacılar

Düz deyiblər sizə ana əvəzi,
Qardaşlara yanan olur bacılar.
Sirrimizi ürəyində gəzdirib,
Dərdimizi qanan olur bacılar.

Ürəkləri qardaş ilə döyünər,
Qardaş deyib adı ilə öyünər,
Fərəhinə, sevincinə söyünər,
Həna yaxıb, təzə geyər bacılar.

Inciyəndə bir kimsənin sözündən,
Dərd bürüyər, qəm süzülər gözündən.
Qardaşını çox istəyər özündən,
Dara düşsə, qardaş arar bacılar.

Bəzən kövrək yanıqlı bir ürəkdir,
Bəzən dağdır, bizə arxa-dirəkdir.
Hər qardaşa vallah, bacı gərəkdir,
Başımızda qızıl tacdı bacılar.

YESENİNİN VƏTƏNİNDƏ

«Мой край задумчивый и нежный!»
Sergey Yesenin

Dahi şairin vətənində – Rusiyanın Ryazan vilayəti, Konstantinovo kəndində olmaq, o yerləri addım-addım gəzib-dolaşmaq, Yesenini *«как бы ни был красив Шираз, он не лучше рязанских раздолий»* yazmağa məcbur edən o gözişləməz ənginlikləri öz gözümlə görmək arzusu uzun müddətdi ki, məni rahat buraxmırdı. Nəhayət bu arzu ilə, iyul ayının 29-da Moskvaya yola düşdüm. Xoşbəxtlikdən həmin gün çox yaxın bir ailə dostumuzun evlənmələrinin 20 illik yubileyi idi. Həqiqəti deyim ki, həmin gün yubiley olduğunu unutmuşdum və mənim Moskvaya məhz o gün getməyim tam bir təsadüf idi. Lakin "təsadüfdən zərurət doğar" deyiblər filosoflar. Ürəkaçan, səmimi yubiley mərasimindən sonra gəlişimin əsas məqsədini dostlarıma bəyan etdim və bizim Yesenin dünyasına səyahətimiz başladı.

İyulun 30-da Yeseninin Moskvada 1995-ci ildə qoyulmuş möhtəşəm abidəsini ziyarət etdik. Abidə Moskvanın ən gözəl, mərkəzi yerlərindən birində (*Tverskoy bulvar, 19*) şairin anadan olmasının 100 illiyi münasibətilə ucaldılmışdır. Abidənin qoyulduğu bağ ətrafda yaşayanların ən gözəl istirahət yerinə çevrilmişdir.

Elə həmin gün Yeseninin Vaqankovo qəbristanlığında yerləşən məzarını ziyarət etdik. Axın-axın gələn gənclər onun məzarı üstə tər çiçəklər qoyur, onun şeirlərini oxuyur, həyatı haqqında maraqlı məlumatlar söyləyir, onun şərəfinə rus klassik ənənələrinə uyğun olaraq bakal qaldırırdılar. Yeseninin məzarı üstə sifətindən əsl şairlik yağan biri bizi diqqətlə süzərək, gəlməyimizin məqsədini biləndən sonra Yesenin haqqında maraqla danışmağa başladı. Görünürdü ki, o, məzarın daimi ziyarətçilərindən idi.



Yeseninin məzarı üstündə. Moskva, Vaqankovo qəbristanlığı, 30 iyul 2009-cu il

Ziyarətçilər getdikcə artırdı. Bütün bunlar cəmi 30 il yaşamış böyük şairin gənclər tərəfindən nə qədər çox sevildiyinin sadə sübutu idi.

Növbəti gün–iyulun 31-də Ryazana yola düşdük. Yeseninin ana yurdu–Ryazan vilayətinin Rıbnoye rayonunun Konstantinovo kəndi Moskvadan təxminən 200 km məsafədədir. Adı çəkilən kənd Moskva–Ryazan avtomagistralından 21 km məsafədə yerləşir. Avtomagistraldan kəndə tərəf burulduqdan sonra göz önündə açılan ucsuz-bucaqsız düzənliklər, taxıl tarlaları başlayır ki, Yesenin öz şeirlərində məhz bu mənzərələri tərənnüm etmişdir:

Потому, что я с севера, что ли,
Что луна там огромней в сто раз.
Как бы ни был красив Шираз,
Он не лучше рязанских раздолий.
Потому, что я с севера, что ли.

Про волнистую рожь при луне
По кудрям ты моим догадайся.
Дорогая, шути, улыбайся,
Не буди только память во мне
Про волнистую рожь при луне.[1]

[1] *«Шаганэ ты моя, Шаганэ!» şeirindən, Собрание сочинений в трех томах. //Москва, Издательство «Правда», 1983. T-1, с.228*

Elə mən də bu ilahi gözəlliklərdən ilhama gələrək Yeseninin şeirlərindən zümzümə edir, özümü xəyalən o dövrdə hiss edirdim.

Nəhayət, müqəddəs Konstantinovo kəndinə çatdıq. Susmuşdum, özümdən asılı olmayaraq həyəcan keçirirdim. Qoruq-muzeyin sahəsinə daxil olmaq üçün bilet almalıydıq, lakin nahar vaxtı olduğundan bir qədər gözləməli olduq. İndi, bir neçə dəqiqədən sonra yaxından tanış olacağımız sahəni uzaqdan seyr edir, rus kəndinin gözəlliklərindən aldığımız ilk təəssüratları bölüşürdük.

Muzey 1965-ci il oktyabrın 2-də Yeseninin anadan olmasının 70 illiyi münasibətilə təşkil edilmiş və SSRİ Nazirlər Sovetinin 7 mart 1984-cü il tarixli sərəncamı ilə "Dövlət Muzey-Qoruğu" statusu almışdır. Muzey 14,6 hektar sahəni əhatə edir.

Nəhayət, bilet alıb qoruğa daxil olduq. Uzaqdan diqqətimizi hər tərəfi alçaq hasara alınmış kiçik birmərtəbəli bina cəlb etdi. Bu, Yeseninin təhsil aldığı kənd məktəbi idi. Lakin, təbii olaraq, ziyarətimizi Yeseninin doğulduğu evdən başlamaq qərarına gəldik.

YESENİNİN EV MUZEYİ





Yeseninin anadan olduğu evin önündə.
Ryazan, Konstantinovo kəndi,
31 iyul 2009-cu il

Yeseninin doğulduğu ev kəndin, demək olar ki, lap mərkəzində yerləşir. Evdən «Казанской иконы Божией матери» kilsəsinə, Oka çayına və Yeseninə sönməz ilham verən Ryazan düzənliklərinə möhtəşəm mənzərə açılır. Ev 1871-ci ildə Yeseninin babası N.O.Yesenin tərəfindən tikilmişdir. 1910-cu ildə yanğın nəticəsində ev yanır və Yeseninin atası bir az kiçik ölçülü yeni ev tikir və həyətyanı sahə alır. Lakin 1922-ci ilin avqustunda yenidən yanğın baş verir və ev demək olar ki, tamamilə yanaraq yararsız hala gəlir. Təxminən 2 il Yeseninin valideynləri kiçik qızları A.A.Yesenina ilə bağlarında qurduqları müvəqqəti daxmada yaşayırlar. Nəhayət, 1924-cü ildə burada, Yeseninin şəxsi iştirakı və maliyyə köməkliyi ilə, yeni ev tikilir.[1]

Həyətə daxil olmamış düz girişin ağzında möhtəşəm bir qovaq ağacı diqqəti cəlb edir. Bu ağac 1924-cü ildə kəndə səfəri zamanı Yeseninin özü tərəfindən əkilmişdir. Ağaca Moskva "Sağlam meşə" («Здоровый лес») təşkilatı tərəfindən xüsusi xidmət göstərilir.

Evin qarşısında ziyarətçiləri çinar və ağcaqayınlar arasında şairin abidəsi salamlayır. Ev giriş hissədən, hər biri təxminən 10 kv.m olan 3 balaca otaqdan, kiçik mətbəxdən və təxminən 18 kv.m. zaldan ibarətdir. Evdə hər şey sanki Yeseninin sağlığında olduğu kimi yerləşdirilmişdir.

[1] *Həmin ev 2001-ci ildə yenidən bərpa edilmişdir.*

Hər bir əşyada - şairin yatdığı çarpayı, onun yanında sevimli kitablarını və şəxsi əşyalarını saxladığı sandıqca, qədimi divar saatı, kiçik ikona, 1909-cu ildə dördillik kənd məktəbini bitirərkən ona verilmiş tərifnamə, mətbəxdə şairin sağlığında evdə işlədilən samovar, qab-qacaq və s. əşyalarda Yesenin nəfəsi duyulur. Anasının otağında taxta asılqandan onun "Anama məktub" («Письмо матери») şeirində xüsusi ilhamla təsvir etdiyi köhnə dəbli məşhur «ветхий шушун»[1] geyimi asılmışdır.

Həyətyanı sahədə 1913-cü ildə tikilmiş köhnə anbar durur. Bura Yeseninin ən çox sevdiyi guşələrdən biri olmuşdur. Yesenin yay vaxtı evlərinə gələrkən bu anbara çəkilərək işləməyi, dincəlməyi və hətta gecələməyi çox sevərmiş.

Anbarda Yeseninin yatdığı çarpayı və balaca iş stolu indi də olduğu kimi saxlanılır. Anbarın ətrafında Yeseninin bacılarının xatirələrinə əsasən sonradan salınmış gilənar və alma bağı həyətə xüsusi gözəllik verir.

Yesenin 1925-ci ildə bacısı E.A.Yeseninaya yazdığı "Bacıma məktub" («Письмо к сестре») şeirində öz gilənar bağlarını belə xatırlayır:

Привет, сестра!
Привет, привет!
Крестьянин я иль не крестьянин?!
Ну как теперь ухаживает дед
За вишнями у нас, в Рязани?

Ах, эти вишни!
Ты их не забыла?
И сколько было у отца хлопот,
Чтоб наша тощая и рыжая кобыла
Выдергивала плугом корнеплод...[2]

Yeseninin anadan olduğu ev 1965-ci il oktyabrın 2-də anadan olmasının 70 illiyi münasibətilə "ev-muzey" statusu almışdır.

YESENİNİN TƏHSİL ALDIĞI DÖRDİLLİK MƏKTƏB

(Земская школа)

Məktəb binası Yeseninin ev muzeyindən təxminən 70-80 metrlik məsafədə yerləşir. Yesenin buraya 1904-cü ildə - 9 yaşında daxil olmuş və məktəbi 1909-cu ildə bitirmişdir. Vaxtilə Yeseninin atası da həmin məktəbdə 3 il təhsil almışdır. Dördillik məktəbdə ilk 3 ildə rus dili, kilsə-slavyan dili (oxu və yazı), hesab, şəriət, 4-cü sinifdə isə tarix və coğrafiya dərsləri keçirilmişdir. Muzey bələdçisinin verdiyi məlumata görə, məktəbdə davranış məsələsində bir qədər problemli olsa da[3], Yesenin öz istedadı ilə hamıdan fərqlənərək məktəbi tərifnamə ilə bitirmiş[4] və ona məktəb tərəfindən əlavə həvəsləndirici hədiyyə - N.V.Qoqolun seçilmiş əsərləri bağışlanmışdır.



Yeseninin təhsil aldığı dördillik kənd məktəbi. Ryazan, Konstantinovo kəndi, 31 iyul 2009-cu il

[1] Так забудь же про свою тревогу,
Не грусти так шибко обо мне.
Не ходи так часто на дорогу
В старомодном ветхом шушуне. (Собрание сочинений в трех томах. //Москва, Издательство «Правда», 1983. T-1, c.169)

[2] Собрание сочинений в трех томах. //Москва, Издательство «Правда», 1983. T-1, c.374

[3] Elə bu səbəbdən Yesenin 3-cü sinifdə oxuyarkən 1 il sinifdə saxlanmışdır və dördillik məktəbi 5 ilə bitirmişdir.

[4] Bu tərifnamə Yeseninin ev muzeyində saxlanılır.

Məktəbdə Yeseninlə bağlı xeyli sənəd – sinif jurnalından şagirdlərin siyahısı olan səhifə, rüblük qiymət cədvəli, hesab dərsində istifadə edilən böyük hesablayıcı sayqac, Yeseninin oturduğu parta və s. əşyalar muzeyin əsas eksponatları kimi nəvazişlə qorunur.

Bu məktəbdən sonra Yesenin 1909-1912-ci illərdə Ryazan yaxınlığında, doğma kəndindən təxminən 60 km. məsafədə olan Spas-Klepiki şəhərindəki ikinci dərəcəli müəllimlik məktəbində oxumuşdur. Onun əsl şairlik istedadı da məhz bu illərdə özünü göstərməyə başlamışdır.

"ANNA SNEQİNA" POEMASI MUZEYİ

Muzey 1995-ci ildə Konstantinovo kəndinin son mülkədar qızı olan L.İ. Kaşinanın (1986-1937) malikanəsində təşkil edilmişdir. Poemanın baş qəhrəmanı Anna Sneqinanın əsas proobrazı məhz L.İ. Kaşinadır. Yeniyetmə dövründə Yesenin dəfələrlə bu evdə olmuş, 1918-ci ildə yazdığı «Зеленая прическа» şeirini[1] bu gözəl, gənc mülkədar qızına həsr etmişdir. "Anna Sneqina"nı oxuyarkən şairin gənc mülkədar qızına saf məhəbbət hissləri duyulur.

İnqilabdan sonra, 1918-ci ildə malikanə milliləşdirilmiş və L.İ. Kaşina Moskvaya köçmüşdür. Elə həmin il Yeseninin şəxsi təşəbbüsü və məsləhəti ilə malikanədə kənd ambulatoriyası təşkil edilmişdir. Sonralar burada kənd məktəbində dərs demək üçün kənardan gəlmiş müəllimlər yaşamışlar. Ümumiyyətlə, 1969-cu ilə qədər bura müxtəlif məqsədlərlə istifadə edilmiş, 1969-cu ildən isə ədəbi muzey kimi fəaliyyət göstərməyə başlamışdır.

Nəhayət, 1995-ci ildə Yeseninin anadan olmasının 100 illiyi ərəfəsində burada onun məşhur "Anna Sneqina" poemasına həsr edilmiş unikal muzey təşkil edilmişdir. Dünyada bir əsərə həsr edilmiş cəmi 6 belə muzey mövcuddur. Bunlar – Şerlok Holms (İngiltərə), Tom Soyyer (ABŞ), Don Kixot (İspaniya), Baron Münhauzen (Almaniya və Latviya), Stantsionnıy smotritel (Rusiya) muzeyləridir.

Muzeydə Yeseninlə və "Anna Sneqina" poemasının qəhrəmanı L.İ. Kaşina ilə bağlı tarixi əşyalar toplanmışdır. Buradakı şərait L.İ. Kaşinanın oğlu Q.N.Kaşinin (1906-1985) xatirələri əsasında o dövrün stilinə uyğun olaraq bərpa edilmiş, həmin dövrdə mülkədar ailələrinə məxsus ab-hava yaradılmışdır. "Anna Sneqina" poemasının əlyazması, Yeseninin ilk şeirlər toplusu olan «Радуница» kitabı, ev sahibəsinə məxsus qədimi royal, L.İ. Kaşinanın məşhur ağ örpəyi (белая накидка)[2] və bir sıra başqa şəxsi əşyaları muzeyin qiymətli eksponatlarındandır. Burada Yesenin haqqında saxlanılmış yeganə sənədli filmə baxmaq, Yeseninin öz səsinə ("Puqaçov" poemasından bir parça) qulaq asmaq mümkündür.

Malikanənin həyətində böyük zövqlə salınmış alma bağı ətrafa xüsusi gözəllik verir.

ELMİ - MƏDƏNİ MƏRKƏZ - ƏDƏBİ MUZEY

Elmi-mədəni mərkəz – ədəbi muzey 1990-cı ildə təşkil edilmişdir. Burada Yesenin yaradıcılığının bütün dövrlərini əhatə edən eksponatlara rast gəlmək olar. Onun sağlığında dərc olunan və indi demək

---

[1] *Собрание сочинений в трех томах. //Москва, Издательство «Правда», 1983. T-1, səh.120*

[2] *Когда-то у той вон калитки*
Мне было шестнадцать лет.
И девушка в белой накидке
Сказала мне ласково: Нет! ("Anna Sneqina" poemasından, Собрание сочинений в трех томах. //Москва, Издательство «Правда», 1983. T-2, səh.41)

olar ki, antikvar hesab edilən şeir kitabları, "Anna Sneqina" poemasını yazarkən işlədiyi yazı stolu[1], şairin şəxsi əşyaları – qələm, mürəkkəbqabı, mürəkkəbqurudan, qəlyan və s., müxtəlif şeirlərin unikal əlyazmaları, şairin valideynlərinə məxsus müxtəlif şəxsi əşyalar, onun həyatının son dəqiqələrini özündə əks etdirən şəkillər və s. eksponatlar buraya gələnləri uzaq 1925-ci ilə aparır. Muzeydə mənim diqqətimi cəlb edən ən maraqlı eksponatlardan biri şairin Qafqaz həyatı ilə bağlı yaradılmış guşə oldu. Çox da zəngin olmayan guşədə Azərbaycan xalçasını və çoxsaylı şəkillər arasında Bakının – İçərişəhərin dar küçələrinin şəklini görmək xeyli xoş oldu. Guşədə eləcə də Yeseninin Bakıda, Tiflisdə və Batumda olduğu vaxtlar yazdığı "İran nəğmələri" silsiləsindən olan bir sıra şeirlərin unikal əlyazmaları saxlanılır.

Təxminən 4 saatdır ki, qoruq-muzeyin ərazisindəyik. Bir vaxtlar qoynunda Yesenin kimi bir dahini bəsləyən, indi bizi xəyalən 100 il əvvələ aparan bu əsrarəngiz gözəllikdən doya bilməsək də, ayrılmaq məcburiyyətindəyik. Vaxtı mümkün qədər ləngitmək məqsədilə tənbəl addımlarla çıxışa doğru irəliləyirik. Ayrılıq kədərini dilimdəki zümzümə daha da dərinləşdirir:

До свиданья, друг мой, до свиданья.
Милый мой, ты у меня в груди.
Предназначенное расставанье
Обещает встречу впереди.

До свиданья, друг мой, без руки, без слова,
Не грусти и не печаль бровей,-
В этой жизни умирать не ново,
Но и жить, конечно, не новей.[2]



Yeseninə sönməz ilham verən əngilliklərdən biri.
Ryazan, Konstantinovo kəndi,
31 iyul 2009-cu il.

[1] *Əslində bu stolun burada deyil, "Anna Sneqina" poeması muzeyində olması təbii görünür və bu haqda müzey bələdçisinə verdiyim təklifim də xoş bir razılıq təbəssümü ilə qarşılandı.*

[2] *Bu şeir Yeseninin qələmindən çıxan son poetik şedevrdir. Şeiri Yesenin ölümündən cəmi bir neçə saat əvvəl – 1925-ci il dekabrın 27-də öz qanı ilə yazmışdır.*

İsaxan İSAXANLI

Serqey Yesenin

GECƏYƏ BAX! MÖCÜZƏDİR GÖYDƏ AY

Gecəyə bax! Möcüzədir göydə ay
Ərşə çəkilibdir yuxum bu gecə.
Könlüm keşikçidir sanki, haraylar
Solub gedən gəncliyimi gizlicə.

Sən ey buz illərin könül sirdaşı,
Məhəbbət demə gəl hər bir oyuna.
Qoy bu ay işığı hər addımbaşı,
Salsın şöləsini mənim boyuma.

Heç nədən qorxmadan, heç düşünmədən
Qoy ayın işığı çəksin şəklimi.
Onsuz da unuda bilməyəcəksən,
Necə ki, sevə də bilmədin məni.

Həyatda bir dəfə sevərlər, düzü
Onunçün bu qədər yadsan sən mənə.
Hədər yerə cökə çağırır bizi,
Bax girib yenə də qarın içinə.

Axı hər ikimiz yaxşı bilirik,
Bu mavi gecədə, ay işığında,
Cökənin üstündə yoxdu bir çiçək,
Qar-qırov görünür hər yarpağında.

Çoxdan qəlbimizdə yoxdu məhəbbət,
Unutduq sevginin nə olduğunu.
İndi bizim üçün boş şeydir əlbət,
Oynamaq bu ucuz eşq oyununu.

Amma hər nə olsa, qucaqla məni,
Qərq eylə o saxta öpüşlərinə.
Qoy çəkilsin artıq qəlbimin çəni,
Qovuşum əbədi məhəbbətimə

"İRAN NƏĞMƏLƏRİ" NDƏN

Köhnə yaralarım ağrımır hələ,
İçkili məclislər çıxıb yadımdan.
Tehranın bu mavi çiçəklərilə,
İndi çayxanada şəfa tapıram.

Çayxana sahibi özü bayaqdan,
Qoy çayxana rusa xoş gəlsin deyə,
Tökür mənə xoruzquyruğu çaydan,
Hey araq yerinə, şərab yerinə.

Çayını tök, çayçı, döymə sinənə,
Bağın gülüstandır, min bir çiçək var.
Boş yerə deyil ki, göz vurdu mənə,
Çəkib çadrasını bir nazlı nigar.

Bahar çiçəyitək gözəl qızları,
İt kimi zəncirdə saxlamırıq biz.
Öpüb oxşayırıq hər vaxt onları,
Davasız-şavasız, pulsuz-parasız.

Bax bu günəş üzlü, ay camallının
İnan hər nazına, hər qəmzəsinə
Qurban eyləyərəm Xorasan şalın,
Şiraz xalçası da verərəm yenə.

Bir az tünd eləsən, çayçı, içərəm,
Yalan söyləmərəm heç zaman sənə.
Yalnız öz yerimə cavab verərəm,
Necə cavab verim sənin yerinə.

Boylanma qapıya sən dönə-dönə,
Bağçana bir başqa giriş yenə var...
Boş yerə deyil ki, göz vurdu mənə,
Çəkib çadrasını o nazlı nigar.

Tərcümə:
İsaxan İsaxanlı

Зарубежные звезды Голливуда

Чарли Чаплин



1913 - Чарли Чаплин начинает легендарную карьеру в Голливуде. Чарльз Спенсер Чаплин-младший родился 16 апреля 1889 года в английской семье эстрадных артистов и впервые вышел на сцену в возрасте 5 лет. В 1910 году он дебютировал на сцене Нью-йоркского мюзик-холла, а три года спустя перебрался в Голливуд, чтобы заняться зарождавшейся в ту пору киноиндустрией. Его плодотворная карьера охватила более полувека и более 80 фильмов, в том числе "Малыш", "Золотая лихорадка", "Огни большого города", "Новые времена" и "Великий диктатор".

Рудольф Валентино



1921 - Рудольф Валентино становится сенсацией экрана. Уроженец Италии Родольфо Альфонсо Раффаэлло сделал короткую, но яркую карьеру в Голливуде под именем Рудольф Валентино. Он покорил сердца американских женщин страстным танго в фильме 1921 года "Четыре всадника Апокалипсиса" и закрепил этот успех своими самыми знаменитыми ролями в картинах "Шейх" и "Сын шейха". Через пять лет после сенсационного дебюта в "Четырех всадниках Апокалипсиса" он умер от прободной язвы в возрасте 31 года.

Грета Гарбо



1926 - Грета Гарбо дебютирует в Голливуде. Урожденной Грете Луизе Густафссон, Грете Гарбо в подростковом возрасте пришлось пойти работать в стокгольмский универмаг, когда после смерти ее отца семья осталась без средств к существованию. Магазин использовал яркую девушку в качестве модели в своей рекламе. На юную красавицу обратил внимание шведский режиссер, и началась ее актерская карьера. В 1926 году она дебютировала в Голливуде в фильме "Поток", а затем снялась в главных ролях в картинах "Анна Кристи", "Дама с камелиями", "Ниночка", "Королева Кристина", "Мата Хари" и "Анна Каренина".

Бела Лугоши



1931 - На американские экраны выходит фильм Белы Лугоши "Дракула". Бела Лугоши (настоящее имя - Бела Ференц Дежо Бласко), родившийся в маленьком городке на территории современной Румынии, был известным артистом театра в Венгрии, а в 1920 году иммигрировал в Соединенные Штаты. В 1927 году он прославился главной ролью в бродвейской постановке романа Брэма Стокера "Дракула", а затем увековечил свою славу, снявшись в этой же роли в фильме 1931 года.

Кармен Миранда

1940 - Кармен Миранда снимается в одной из главных ролей в фильме "Down Ar". Знаменитая "красотка в шляпке тутти-



фрутти" родилась под именем Мария ду Карму Миранда да Кунья в Португалии, но выросла в бразильском Рио-де-Жанейро, где стала звездой звукозаписи и покорила бразильское кино. В 1940 году она штурмом взяла Голливуд, затмив Бетти Грейбл в фильме "Down Argentine Way". После этого она снялась с непременными латиноамериканскими песнями и танцами еще в десятке фильмов, а в 1955 году неожиданно умерла от сердечного приступа в возрасте 46 лет.

Шон Коннери



1962 - Шон Коннери воплощает на экране образ Джеймса Бонда. "Бонд... Джеймс Бонд". Этими тремя словами в фильме 1962 года "Доктор Ноу" элегантный шотландец, урожденный Томас Шон Коннери из рабочей среды Эдинбурга, завоевал сердца американских кинолюбителей. В дальнейшем он сыграл роль агента 007 еще в пяти фильмах, после чего перешел к звездным ролям в десятках других драм и триллеров.

Омар Шариф



1962 - Омар Шариф дебютирует на американском экране. Урожденный Мишель Демитри Шальхуб, Омар Шариф оставил семейный лесозаготовительный бизнес в Александрии, чтобы попробовать себя в качестве актера и совершил в 1950-е годы взлет к славе в египетском кинематографе. Однако лишь исполнением роли Шарифа Али в фильме 1962 года "Лоуренс Аравийский" он снискал международное признание. Эта роль принесла Шарифу номинацию на "Оскара", а затем последовали главные роли в фильмах "Доктор Живаго" и "Смешная девчонка".

Арнольд Шварценеггер

1970 - Арнольд Шварценеггер снимается в фильме



"Геркулес в Нью-Йорке. Самый знаменитый австриец в Калифорнии иммигрировал в Соединенные Штаты в 1968 году в возрасте 21 года и прочно обосновался в кругах бодибилдинга. В своем первом фильме он снялся в 1970 году, но широкое признание получил лишь после исполнения главной роли в фильме 1982 года "Конан-варвар". Он сыграл главные роли в долгой череде приключенческих и комедийных фильмов, после чего устремил взоры на политику и стал в 2003 году губернатором Калифорнии.

Николь Кидман



1989 - Вышел первый голливудский фильм с Николь Кидман. Высокая светловолосая австралийка, известная исполнением столь разнообразных ролей, как Вирджиния Вулф в

"Часах" и Сатин в "Мулен Руж", на самом деле родилась на Гавайях и недолго прожила в Вашингтоне, а затем в возрасте 3 лет вернулась с родителями в Сидней. В старших классах она бросила школу, чтобы заняться актерской карьерой, и снялась в первой картине в возрасте 16 лет. В Голливуде Кидман дебютировала в фильме 1989 года "Мертвый штиль", и с тех пор картины с ее участием неизменно привлекают большие кассовые сборы.

Энг Ли



1992 - Энг Ли снимает свой первый полнометражный фильм. Энг Ли изучал искусство театра и кино и у себя на родине на Тайване, и в Соединенных Штатах, а в 1992 году снял свой первый полнометражный фильм "Толкающие руки". Его первые три картины были посвящены конфликтам между представителями разных культур и поколений на Тайване. Впоследствии он вошел в голливудский мейнстрим с такими фильмами, как "Разум и чувства", "Ледяной ветер", "Погоня с дьяволом" и "Горбатая гора".

Натали Портман

1995 - первый кинодебют Натали Портман. Уроженка Израиля Натали Портман (Натали Херш лаг) переехала в Соединенные Штаты вместе с



родителями в возрасте 3 лет. В 13 лет она исполнила роль девочки-сироты в фильме Люка Бессона "Леон" (также известном под названием "Профессионал") 1994 года. Затем она обратила на себя внимание работами в фильмах "Схватка" и "Марс атакует!", после чего сыграла в трилогии-предыстории "Звездные войны". С 1999 по 2003 год Портман реже снималась, работая над дипломом по психологии в Гарвардском университете. По окончании учебы снялась еще более чем в десятке фильмов.

Шарлиз Терон



1995 - Шарлиз Терон снимается в своем первом голливудском полнометражно. Уроженка ЮАР Шарлиз Терон начинала карьеру в качестве модели и балерины. Но когда травма колена положила конец ее танцевальным выступлениям, мать купила ей билет до Лос-Анджелеса. Терон привлекла внимание голливудского агента во время спора с кассиром в банке и в итоге снялась в 1995 году в малобюджетном фильме. Затем она исполнила главные роли в нескольких драмах и триллерах, удостоившись награды Киноакадемии за яркое исполнение роли серийного убийцы в фильме 2003 года "Монстр"

Пенелопа Крус



2000 - Пенелопа Крус на вершине. Стремительный взлет этой испанки к славе начался в 1992 году с ролей в фильме "Любовь, секс и ветчина" и отмеченной "Оскаром" картине "Прекрасная эпоха". Ее работа с культовым испанским кинорежиссером Педро Альмодоваром, начавшаяся в 1997 году, обратила на актрису внимание Голливуда. В 2000 году она приехала в Америку для участия в фильме "Феминистка", с тех пор много снимается по обе стороны Атлантики.

AMEDEO MODİLYANİ

PARİS BOHEMASININ SONUNCU ŞAHZADƏSİ VƏ "LƏNƏTLƏNMİŞ" RƏSSAM

Sovet dönəmində bəzi ziyalıların evində «Leopold Zborovskinin portreti», yaxud «Janna Ebüternin portreti»nin reproduksiyasını görmək olardı. Axı o vaxtlar çoxu «Monparnas 19» filmini görmüş və qadınların sevimlisi, «bohema şahzadəsi», alkoqol, narkotik və vərəmin birgə səyi ilə məhv olandan sonra dünya şöhrəti qazanmış dahi rəssam haqqında əhvalatı yaxşı bilirdi. Bir balaca artıq məlumatı olanlar Anna Axmatovanın Modilyaniyə «Rotonda» kafesində çılpaq pozaları haqqında qeybətlər də eləyirdi.

Kimsə İlya Erenburqun «qarğışlanmış rəssam» haqqında şeirlərini oxumuşdu. «Modi» ifadəsi fransızca qarğışlanmış, lənətlənmiş mənasını verir.

BƏLKƏ, BU "BARAMA" DAN RƏSSAM ÇIXDI?

"Modilyani" soyu Roma ətrafında kəndin adından götürülüb. 4 uşaqlı ailənin sonbeşiyi olan Amedeo doğulanda atası müflisləşmişdi. Onların ev əşyaları müsadirə edilməliydi. Amma İtaliya qanunlarına görə, zahı qadının əmlakı toxunulmazdı. Ona görə də, müsadirədən əvvəl ev sakinləri butun qiymətli əşyalarını uşağını qucağına sıxıb uzanmış ananın çarpayısına qalayırlar. Valideynləri bunu qismətə yox, uşağın ağır ayağına yazdılar.

İkiyaşlı Dedonun ilk xasiyyətnaməsi anasının gündəliyində yazılıb: "Bir qədər ərköyün, bir az şıltaq, amma mələk kimi göyçək bir uşaqdır". Ciddi xəstəlikdən sonra bu gündəlikdə yeni yazı əmələ gəldi: "Dedoda çox güclü plevrit var (ciyərə su yığılma). Xasiyyəti hələ formalaşmayıb deyə, mən hələ ki, kim olacağını



deyə bilmərəm. Görək də, bəlkə, bu "barama"dan rəssam çıxdı?»

Kiçik yaşında iki dəfə dalbadal yatalaqla xəstələnir. Sağalandan sonra məktəbi atan Modilyani rəssamlıqla ciddi məşğul olmağa başlayır. Bir qədər sonra xəstəliklərin sırasına vərəm də daxil olur.

Qırmızı şərfli, qara şlyapalı, boz kostyumlu rəssam...

Modilyani 1906-cı ildə İtaliyadan Parisə gəlir. Onun 22 yaşı vardı. O, gözəl və cəzbedici idi.

Bohema həyatına baş vuran rəssamı tez-tez sərxoş, bəzən isə yarıçılpaq şəkildə küçələri dolaşan görmək olardı.

Parisə gələndən sonra Pol Aleksandr adlı həkim onun üçün studiya icarəyə götürərək, Modilyani əsərlərinin ilk kolleksiyaçısına çevrildi.

Reallıqdan qaçaq düşmüş lunatik rəssamlar və sənətşünaslar ona soyuq münasibət göstərirdilər. Başqa müasirləri də eləcə. Modilyani Xuan Qris, Pablo Pikasso, Diyeqo Rivera və Jak Lipşitsin də portretlərini işləsə də, sənət məsələlərinə baxışlarını onlardan heç kimlə müzakirə eləmək fikrində deyildi. Axı o, incəsənətin beşiyi olan İtaliyadan idi və özünü tamamilə müstəqil sayırdı. Onu Maks Jakob, Giyom Apolliner, Gertruda Steyn kimi ədiblər sevirdisə də, bu sevgi onun yaradıcılığına aid deyildi, amma rəssamın koloritli obrazı ədəbi əsərlərə keçirdi....

Modilyaninin dostluğunda qəribəliklər çox idi. O, təbiətcə tərki-dünya olan rəssam Moris Utrillo ilə dinməzcənə şərab sümürə, italyanca bir kəlmə anlamayan Xuim Sutin üçün saatlarla Dantedən deklomasiya deyə bilərdi. Rəssam kimi ona bircə rumın heykəltəraşı Brankuzi maraqlı idi. Bəzən o, heykəlləri üçün daş blokları və şalbanları yaxınlıqdakı metro tikintisindən oğurlayarmış. Heykəltəraşlıq çoxlu güc də tələb eləyirdi. Bir dəfə o, halsızlıqdan küçədə yıxılıb qalandan, qospitalda müalicə olunub çıxandan sonra heykəltəraşlıqla vidalaşmalı olur. Deyilənə görə, bir neçə heykəli Sena çayında batırır, çünki onları yeni emalatxanaya daşımağa pulu yox idi.

"Yaratmaqçün mənim gözümün qarşısında canlı məxluq olmalıdır, mən onu görməliyəm..." deyən rəssam nadir sənətkarlardandır ki, heç vaxt pəncərədən o yanda nə baş verdiyi ilə maraqlanmırdı. Elə bil ətrafındakı əşyaları, təbiəti də görmürdü. Üst-üstə 5-6 peyzajı olan rəssam yalnız insan naturasıyla maraqlanırdı, onları küçədə, kafedə, bir sözlə, harda gəldi çəkirdi. Orta hesabla gündə 150 eskiz çəkən sənətkar insanları obraza çevirməyin özünəməxsus yolunu tapa bilib: uzun boğazlı insanların uzunsov başında güclə sezilən üz cizgiləri, bəbəksiz gözlər...

Modilyani naturasını adətən özü seçirdi. Çəkdiyi portretə bir gündən artıq vaxt ayırmazdı.

Bir dəfə qoca Renuar və Modilyani görüşürlər və ahıl sənətkar düşünür ki, cavan rəssam ondan çılpaq qadın çəkməyin yollarını öyrənmək istəyir: "Siz çılpaq natura çəkəndə fırçanı elə aparmalısız ki, elə bil onun ombasını sığallayırsız". Cavabında Modilyani "mən heç kimi sığallamaq fikrində deyi-

ləm, məni qadın ombası heç maraqlandırmır" deyə çığırıb, Renuarla sağollaşmadan qapını çırpıb gedir. Axı Modilyani Renuar kimi şəhvətdən, xarici konstruksiyadan yox, daxili harmoniyadan ilhamlanırdı. İnsan qəlbi, əhvalının dəyişmə tonları, insan taleyi rəssam üçün birinci yerdə dururdu.

BİRİNCİ VƏ SONUNCU SƏRGİSİ

Zborovski adlı diler onun fərdi sərgisini təşkil edir. Polis burada "ictimai əxlaqın təhqiri" faktını görmüş və sərgini bir neçə saatdan sonra bağlamışdı.



İndi Nyu-Yorkun müasir sənətlər muzeyinin incisi sayılan "Böyük çılpaq qadın" əsəri də polisin gözünə pis görünmüşdü.



Əlbəttə, polis hardan biləydi ki, Modilyaninin «nyu»su hələ 1-ci Fransiskin sarayında işləyən «Fonteblyu məktəbi»ndən gəlib Enqr və Maneyə qədər olan uzun yolun bir qırığıdır. Onlar necə bilə bilərdi ki, «avinyon qızları»na o,



Simon Martinin, Botiçellinin gözləri ilə baxır. Bütün bunlar 1917-ci ildə baş verirdi; tərs kimi sərgi salonu da polis məntəqəsiylə lap üzbəüz yerləşirdi.

BOHEMANIN ŞAHZADƏSİ

Modilyani hər mənada həyatdan çox tez köçüb. 36 yaşında dünya ilə vidalaşan rəssam heç özü bilmədən yaşadığı dövrün nəbzini tuta bilmişdi. "Dəlisov illər"in "qarğışlanmış rəssamları" yavaş-yavaş mansardlardan salonlara enməyə başlamışdı. Amma tünlüklə heç arası olmayan Modilyani bu yolla da getmək istəmədi. Ətrafda tüğyan eləyən kubizm də heç vecinə deyildi. Çox xəstələnsə də, çox ağır şəraitdə yaşasa da, Modilyani öz həyatı ilə göstərdi ki, sonacan getmək, rəngkarlıqla həqiqət axtarışı nə deməkdir.

Parislidən Modilyanini soruşanda heç kim onun kimliyini bilməzdi, ya da onu "sərxoş div" adlandırardılar.

Qadın üstündə davaları isə Monmartrda əsl folklora çevrilmişdi.

Rəssam sadə, təcrübəsiz qadınları sevir, onlar da rəssamın yatağına məmnuniyyətlə girirdilər. Monparnas bulvarında boz velyur kostyum geymiş, qoltuğunda etüd papkası, cibindən rəngli qələmlər boylanan, qara şlyapalı və qırmızı şərfli Modilyanini görəndən sonra heç bir qadın onun emalatxanasına getmək təklifinə rədd cavabı verə bilmirdi. Çoxsaylı qadınları əsasən naturaçılardan idi. Sadə qadınlara, məsələn paltaryuyan, ofisiant, kəndli qadınlara üstünlük verərdi. Saysız hesabsız romanları olsa da o, cəmi iki qadını sevib – Beatris Xestinq və Janna Ebütern. Qadınları arasında xüsusi yerlərdən birini isə Anna Axmatova tuturdu.



MODİLYANİ, PİKASSO VƏ NAMƏLUM ŞƏXS.

ANNA AXMATOVANIN ÇILPAQ RƏSMLƏRİ

Anna Axmatova ilə Modilyani Parisdə 1910-11-ci illərdə görüşəndə Modilyaninin 25, Annanın 20 yaşı vardı.



Axmatova Parisə toy səyahəti vaxtı gəlmişdi. Cavan ər xanımını Parisin bədii bohemaası toplaşan yerə, «Rotonda» kafesinə gətirir. Modilyaninin gözü An-

nanı məhz orda tutdu. Rəssam burada dava qoparır ki, niyə Qumilyov (Annanın əri) arvadına heç kimin başa düşmədiyi rus dilində müraciət edir. Anna ikinci dəfə Parisə gələndə əri Qumilyovla münasibətləri sona yaxınlaşırdı, Modilyani ilə sevgisi isə yenicə başlayırdı.

Anna Axmatovanın memuarlarında onların Lüksemburq bağında gəzişmələri, şer demələri səhnələri var. Şahidlər də təsdiq edirlər ki, Modilyani həddən çox şeir əzbər bilir, saatlarla poeziyadan danışırdı.

Ona görə də, Axmatovanın gözünə işıq saçan, sanki ilahi nurla bərq vuran bir insan kimi görünmüşdü. Parisə ikinci gəlişində Modilyaniyə çılpaq pozada durması barədə Axmatova öz xatirələrində yer ayırmasa da, 16-dan artıq rəsm əsəri bu əlaqə barədə çox şeylər danışır.

Axmatova yazırdı: "Mən onu dilənçi kökündə yaşayanda tanımışam. Başa düşə bilmirəm ki, o nəylə dolanırdı. Qəribədir ki, heç vaxt da şikayət eləməzdi. Bəzən məni ay işığı altında Panteona baxmağa aparardı. Əsl Parisi mənə o göstərdi".

BEATRİS VƏ JANNA

Özünü sirk artisti, səyyar sənətşünas kimi də təcrübədən keçirən Beatris onun ilham pərisi və sevimli modeli kimi bir çox əsərlərində iştirak edir.



İngilis şairəsi, jurnalist Beatris Xestinqlə birlikdə iki ilə qədər bir yerdə yaşayırlar.

Bəzən Modilyani qısqanclığından onun saçından tutub küçə səkisi ilə sürüyə bilərdi. Amma Beatris onun üslubunun yarandığı dövrdə ilham mənbəyi idi. Romanın sonunda Beatris Modilyanini qoyub qaçır. Bu xanım sonra xatirələrində Modilyanini «donuz» adlandıracaqdı.



Arıq və solğun üzlü Janna Ebüternə rast gələndə o, artıq son dərəcə xəstə və alkoqolizmə meylli vəziyyətdə idi. Jannanın 19 yaşı vardı. Yəhudi əri öz qızına layiq bilməyən valideynlərin etirazına baxmayaraq onlar birlikdə yaşayırlar. 1918-ci ildə onların Coanna adlı qızları dünyaya gəlir. Amedeonun əsas modeli kimi Janna ən azı 25 lövhənin qəhrəmanı olub. Janna rəssamın ən ağır, xəstəliklə çarpışan, kobud və dalaşqan olan illərində yanında idi.

Parisdə ölüm yatağında uzananda Modilyani Jannaya «gəl o dünyada da sevimli modelimlə birlikdə olum və əbədi ləzzət alaq» deyərək, ölümdə də birlikdə olmağı təklif edir. Rəssam ölən günü Janna heç ağlamırdı, yalnız susurdu. Sevgilisinin ölümünün sabahısı günü 8 aylıq hamilə olan Janna özünü 6-cı mərtəbədən ataraq intihar edir.

Onların qızını Modilyaninin bacısı himayəsinə götürür.

Amedeo Modilyani sadə yəhudi məzarlığında başdaşısız dəfn olunur. 10 ildən sonra dostları Jannanın valideynlərini güclə inandıra bilirlər ki, sevgililər bir yerdə yatmalıdır.Onları bir yerdə dəfn eləyirlər.

YAŞADI, YARATDI, İÇDİ, DAVA SALDI, ÖLDÜ

Sağlığında əsərlərini alanları barmaqla saymaq olardı: həkim Pol Aleksandr, qardaşı, diş həkimi Cin (onun yanında dişlərini müalicə edirdi), dəllal Qulyom Şeron. Şeron otağın haqqı, kətan, rəng, şərab və cib xərcliyinin haqqı kimi bütün əsərlərini aparırdı. Modilyani bəzən əsərini bir stəkan içki və bir qab makarona dəyişirdi.

Amma indi 20-ci əsrin sənəti deyəndə ilk əvvəl Modilyaninin adı çəkilir. Leopold Zborovski 1917-ci ildə Modilyani sənətinə hüququnu, demək olar ki, qara qəpiyə almışdı. 2006-cı ildə isə Londonda Jannanın portreti 30 milyon dollara satılmışdı. Həmin il Nyu-Yorkda bir xanım evində Modilyaninin sənətini görmək ehtirasına 31 milyon dollar vermişdi. Hazırda Modilyani ən bahalı rəssamların əlliliyində yuxarı pillələrdən birini tutur. Cəmi 14 il yaratmasına baxmayara, Modilyani 20-ci əsrin ən mifləşmiş rəssamlarındandır.

GÜLNARƏ RƏFİQ
LENT.AZ



USAQ DÜNYASI

"Xəzər Xəbər" toplusunun məktəblilər üçün əlavəsi

ƏZİZ BALALAR, YENİ DƏRS İLİNİZ MÜBARƏK

"DÜNYA" MƏKTƏBİNİN İLK MƏZUNLARI İLƏ FƏXR EDİRİK!

"Dünya" məktəbimiz 1998-ci ildə Xəzər Universitəsinin nəzdində fəaliyyətə başladı. İlk gündən təhsilin keyfiyyəti ilə, şagirdlərə göstərdiyi qayğı və sevgisi ilə seçildi!

Ciddi, eyni zamanda humanist idarə edilməsi ilə seçildi! Gözəl tərbiyə ocağı kimi seçildi!

Beynəlxalq aləmdə tanındı və 2009-cu il yanvarın 16-da "Dünya İB məktəbi" ("World IB School") statusu almaqla seçildi!

2008-2009-cu tədris ilinin sonunda "Dünya" məktəbimiz ilk məzunluq həyəcanını yaşadı!

Məzunlarının ilk böyük uğurları ilə seçildi sevimli "Dünya" məktəbimiz! Bütün məzunları ali məktəbə daxil olmaqla, 100 faizli nəticə ilə bütün Azərbaycanda birinci oldu, seçildi "Dünya" məktəbimiz!

Bu uğurların qazanılmasında fövqəladə böyük zəhmət çəkən "Dünya" məktəbinin rəhbərliyinə, müəllimlərinə və Xəzər Universitəsinə öz minnətdarlığımızı bildiririk!

Qarşıdakı 2009-2010-cu tədris ilində də "Dünya" məktəbinin və onun məzunlarının eyni uğurlara imza atacaqlarına əminik!

7 məzunumuzun hər biri ali təlabə adını qazandı, üç ali məktəbə daxil oldu onlar!

Onları təbrik edirik! Siz də onlarla tanış olun:

Qaracalı Ülkər Bəhram qızı – Xəzər Universitəsi, menecment ixtisası;

İslamlı Fuad Ağasəf oğlu – Xəzər Universitəsi, iqtisadiyyat ixtisası;

Rzalı Ziya İbrahim oğlu – Xəzər Universitəsi, mühasibat uçotu və audit ixtisası;



Yusifova Pərvanə

Məmmədzadə Səməd Etibar oğlu – Xəzər Universitəsi, maliyyə ixtisası;




Rzalı Ziya



Qaracalı Ülkər

Namazlı Səma Müsəddin qızı – Azərbaycan Dövlət İqtisad Universiteti, maliyyə ixtisası;



Məmmədov Müzəffər



Məmmədzadə Səməd


Məmmədov Müzəffər Kamil oğlu – Azərbaycan Dövlət İqtisad Universiteti, biznesin idarə edilməsi ixtisası;



Namazlı Səma

Yusifova Pərvanə Fikrət qızı – Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, dizayn ixtisası.

DÜNYA MƏKTƏBİNİN VALİDEYN BİRLİYİ



İslamlı Fuad

RİZA AKDEMİR
(TÜRKİYƏ)

BALACA HƏSƏNLƏ ANASI

Balaca Həsən bir axşam atasının ödəməli olduğu borcları hesabladığını görəndə tez öz otağına getdi. Çünki ağlına bir fikir gəlmişdi; anasına göstərdiyi xırda-para yardımların haqqını pul şəklində çox rahatlıqla istəyə bilərdi.

Ertəsi gün kiçik Həsənin anası mətbəxdə stolun üstündə bir parça kağız gördü. Kağız parçasında bu sözlər yazılmışdı:

Ananın, oğlu Həsənə olan borcu:
Bazardan çantaları evə daşımaq haqqı - 550 lirə
Məktubları poçta aparmaq haqqı - 300 lirə
Yaxşı bir övlad olduğuna görə - 1500 lirə
Çiçəklərə su vermə haqqı - 900 lirə
Cəmi: 3250 lirə

Həsənin anası kağızda yazılanları oxuyandan sonra heç nə demədi.

Həsən həmin axşam mətbəxdəki stolun üstündə 3250 lirə pulu görəndə o qədər sevindi ki... Görən kimi də tez götürüb cibinə qoydu. Lakin pulun yanında bir hesab kağızı da vardı. Kağızda yazılmışdı:

Həsənin anasına olan borcu:
Evdə xoşbəxtlik içində keçirdiyi on ilin haqqı - sıfır
On il ərzində evdə yediyi yeməyin haqqı - sıfır
Xəstələndiyi zaman baxmaq xərcləri - sıfır
Yaxşı bir anası olduğuna görə verməli olduğu haqq - sıfır
Cəmi: sıfır

Balaca Həsən kağızda bu yazılanları oxuyanda yaman peşman oldu. Elədiyi səhvi başa düşdü. Gözləri yaş içində anasının yanına qaçdı. Onun qolları arasına atılaraq bağışlanmasını istədi və 3250 liranı yavaşca anasının cibinə qoydu.

ANA SEVGİSİ



Evin ən gözəl yeri üst mərtəbədəki otağın pəncərəsiydi. Ordan bütün küçə görünürdü. Şəhəri əhatəyə alan dağlara ordan rahatlıqla tamaşa eləmək olurdu. Hər gün günortadan sonra ana orda oturar, uşaqlarıyla birlikdə evindən ayrılan həyat yoldaşı ilə sağollaşardı.

Bazar axşamıydı. Yenə də həmin yerdə oturmuşdu. Həyat yoldaşının və uşaqlarının qayıtmağını gözləyirdi. Onlar isə hələ heç evə çatmamış, ananı uzaqdan sevgiylə salamlayırdılar. Ana illərdən bəri xəstəydi, yeriyə bilmirdi. Ancaq yenə də gözünü uşaqlarının üstündən qətiyyən ayırmazdı. İstəməzdi ki, balalarının əyin-başında bir balaca ləkə olsun, ya da ayaqqabılarında bir palçıq izi qalsın. Uşaqları da ona gəzib gördüklərindən, eşitdikləri musiqilərdən və

dərslərindən danışardılar. Onlar danışdıqca ananın gözlərinə işıq gələrdi. Ana onları sevinclə dinləyərdi. Onlar çayırlıqlarda otlayan inəklərdən, bir gün qarşılarına birdən gözləmədikləri halda çıxan dovşandan danışanda ana özünü o qədər bəxtiyar sanırdı ki... Uşaqları ona bir hədiyyə gətirdikləri zaman dünyalar qədər sevinirdi. Ən çox da əkiz balalarının çöllərdən topladıqları çiçəkləri xoşlayardı. Gətirən kimi həmin çiçəkləri güldana qoyar, sonra da düz bir həftə onlara həvəs və qürurla tamaşa eləyərdi. Baxırdın ki, uşaqlar bəzən də içiboş balıqqulağı, ya da bir quş yuvası gətirdilər. Ananın sevincdən az qalırdı ürəyi yerindən oynasın...

Günlərin bir günü ata əziz balalarına dedi ki, gələn bazar günü yaxınlıqdakı qəsəbəyə gedəcəkdir. Çünki orda bəzi işləri var.

Atalarından bu sözləri eşidən uşaqlar sevinclə əllərini bir-birinə vuraraq:

– Yaxşı oldu, səhər tezdən qatarla yola çıxarıq, axşam da qayıdarıq, – dedilər.

Bu, qeyri-adi bir şey idi... Bütün günü meşəlikdə, çayın kənarında əylənəcək, şənlənəcəkdilər. Tez nə almalı olacaqlarını fikirləşdilər... Çiyinə atılan bir çanta, bardaq, futbol topu, tor yelləncək... Daha nə qədər şey alacaqdılar... Uşaqlar öz aləmlərindəydilər, şirin-şirin danışırdılar.

Ana bir tərəfə çəkilib yazıq-yazıq oturmuşdu. Bütün günü evdə təkbaşına qalacaqdı. Pəncərənin kənarında oturacaq, ürəyi sıxıla-sıxıla gözlərini yollara zilləcəyək, nə isə bir şey oxumağa çalışacaqdı. Yenə də vaxt keçməyəcəkdi... Nə olardı uşaqlardan heç olmazsa biri yanında qalaydı. Ancaq heç bir kəlmə də demədi. Uşaqlarının kefini pozmağa haqqı yox idi...

Günortadan sonra Yavuz anasının yanında oturub kitab oxuyurdu. Bir sözü düz oxumayan kimi anası həmin sözü təkrar eləyir, oğlunun səhvini düzəldirdi.

Bir azdan Yavuz kitabdan oxuduğu parçanı bitirdi. Elə bil anidən ağlına gəlibmiş kimi anasının qoynuna sığındı. Qollarını onun boynuna dolayaraq:

– Anacan, bazar günü mən sənlə qalmaq istəyirəm. Ancaq heç kim heç nə bilməsin. Öz aramızda qalsın, olarmı?

Anası oğlunu öpüb oxşayaraq:

– Yaxşı, əziz balam. Bu hərəkətin məni çox sevindirdi... Bazar günü mənim də ürəyim sıxılmaz...

Səhəri gün balaca qız mətbəxdə işləyən vaxt əlindən bir qəza çıxdı. Ayşə yuduğu tabağı silib qurulamaq istəyirdi ki, tabaq əlindən yerə düşdü və qırıldı. Uşağın canına birdən qorxu düşdü.

Tabağın qırıldığını anası görmüşdü. Ona görə də, qızına nəvazişlə yaxınlaşıb:

– Canın sağ olsun, quzum, qab-qacaq yerində başqa tabaqlarımız var, – dedi.

Anasının belə səmimi minasibətindən balaca qız çox sevindi... Evdən çıxıb məktəbə gedərkən anasına dedi:

– Anacan! Bilirsənmi, bazar günü mən evdə qalacağam. Bir yerdə oturarıq. Ancaq bu söz öz aramızda qalsın, heç kim bilməsin.

Axşamüstü ana öz otağına çəkilmişdi. Paltar tikməklə məşğul idi. Bu vaxt böyük oğlu içəri girdi. Sağına-soluna baxdı. Elə bil nə isə bir sıxıntısı vardı. Özü də sözlü adama oxşayırdı, nəsə demək istəyirdi. Ancaq deyə bilmirdi.

Axırda anası məcbur qalıb soruşdu:

–Xeyir ola, nə olub, nə xəbər var?

–Heeç.., Anacan! Mən bir oyuncaq təyyarə düzəldirəm. Olar ki, bazar günü evdə qalım onu düzəldib qurtarım? O birilər getsinlər. Mən burda sənin yanında qalsam necə olar? Ancaq bunu nə atama, nə də bacı-qardaşlarıma söyləməzsən, yaxşımı?

Belə təmizqəlbli və başa düşən uşaqlarının olmağından idi ki, ananın gözləri yaşla dolmuşdu. Axşam həyat yoldaşına olanları bir-bir gizlincə çatdıran zaman həyat yoldaşı da:

–Bazar günü gəl belə bir iş eləyək – dedi – mən fabrikin sahibi ilə danışaram, avtomobilini bir günlüyə alaram. Oturmağa dörd adamlıq yeri var. Yavuz sürücünün yanında otursa, biz də arxaya rahatca sığışarıq. Sən də gələrsən. Hə, nə deyirsən?

Ana əlini əlinə vuraraq bu təklifi sevinclə qəbul elədi. Həmin bazar gününü onlar həqiqətən də çox gözəl keçirdilər. O sevinc dolu istirahət gününü illər boyu yadlarından çıxara bilmədilər.

İKİSİ DƏ DÜZDÜR

Bir cavan oğlan Böyük Fridrixin yüzbaşılarından birinin yanına gəlib, əsgərliyə yazılmaq istədiyini bildirir. Həmin gənc yaraşıqlı, boylu-buxunlu bir dəliqanlı idi.

Yüzbaşı əvvəlcə bu gəncin istəyini qəbul eləmir. Çünki o ancaq fransız dilində danışa bilir, almanca isə bir söz belə anlamırdı. Lakin yüzbaşı dəliqanlı gəncin yalvarışları qarşısında çox dayana bilməyib yumşaldı, onun əsgər olmaq istəyini qəbul eləmək məcburiyyətində qaldı. Bunları da söyləməyi yadından çıxarmadı:

– Bax, bizim kral ordüya yalnız almanca bilənlərin əsgər olaraq alınmağını istəyir. Yoxlama vaxtı əsgərliyə təzə gələnlərə də üç sual verir. Birinci sual belədir: "Neçə yaşındasan?" Dərhal almanca cavab ver: "iyirmi dörd yaşındayam". İkinci sualı bundan ibarətdir: "Nə qədər vaxtdır ki, hərbi xidmətə çağırılmısan?" Bu suala "üç aylığam"deyə cavab verməlisən. Üçüncü sual isə belədir: "maaşını və yemək içməyini doğru-dürüst alırsanmı?" Bu suala da tez: "ikisi də düzdür" – deyə, cavab ver. Kral bu üç sualın üçünü də həmişə eyni ardıcıllıqla verir...

Yüzbaşı fikirləşdiyi kimi də olur. Kral ordunu yoxlamağa gələndə orduya təzə qəbul edilən həmin gəncin qarşısında dayanır. Ancaq işin tərsliyinə bir bax! Sualları həmişə soruşduğu sıra ilə soruşmur:



–Neçə vaxtdır ki, hərbi xidmətə çağırılmısan?

Gənc adam alman dilində:

–İyirmi dörd il.

Kral çaşıb qalsa da, ikinci sualını soruşur.

–Neçə yaşındasan?

–Üç aylığam...

Bu cavaba tamam məəttəl qalan kral deyir:



–Mənə elə gəlir ki, ya sən, ya da mən dəliyəm. Gənc əsgər gecikmədən cavab verir:


–İkisi də düzdür...

Kral hiddətindən az qala cin atına minəcəkdi. Titrəyə-titrəyə yaxınlaşan yüzbaşı olanları açıq-aydın bir dillə krala başa salır. Kral gülə-gülə:

– Heç narahat olmayın – deyir – fransız deyilənləri çox gözəl anlayır. Qəbahət məndədir ki, sualları sıra ilə soruşmadım.

Azərbaycan dilinə çevirən:
Mehman Musaoğlu

KİTABXANAMIZIN YENİ KİTABLARI



Downie, R. Health promotion: models and values / R.S. Downie, C. Tannahill, A. Tannahill. – 2nd ed. – New York: Oxford University Press, 1999. – 218 p. – ISBN 0-19-262591-8

Heyat, F. Azeri women in transition: women in Soviet and post-Soviet Azerbaijan. – 2nd ed. – Baku: Chashioglu, 2005. – 306 p. – ISBN 9952-27-030-5



Hutt, M. Business marketing management: B2B. – 10th ed. – Mason, OH: Thomson South-Western, 2009. – 634 p. – ISBN 0-324-58167-X





The little data book on information and communication technology 2009. – Washington, DC: World Bank, 2009. – 230 p. – ISBN 978-0-8213-7857-1



Mays, G. Local public health practice: trends and models / G. P. Mays, C.A. Miller, P. K. Halverson. – Washington: American Public Health Association, 2000. – 292 p. – ISBN 0-87553-243-8

Reshaping economic geography:world development report 2009. – Washington, DC: World Bank, 2009. – 383 p. – ISBN 0-8213-7607-2





Вазех Мирза-Шафи. Лирика.- Баку: Чашыоглу, 2007. – 280 с.- ISBN 978-9952-27-055-6

Сабир. Избранные произведения. – Баку: Чашыоглу, 2007. – 248 с.- ISBN 978-9952-27-057-0



Hazırlayanı: Lyudmila Sotova

KHAZAR VIEW

XƏZƏR XƏBƏR

Öz ciddi məzmunu və rəngarəngliyi ilə seçilən
"Xəzər Xəbər" toplusu yenə sizin görüşünüzə gəlib.
"Xəzər Xəbər"də Azərbaycan, rus, ingilis,
türk və başqa dillərdə dərc olunan maraqlı xəbərlər,
ali və orta təhsil haqqında yeniliklər,
poeziya və ədəbiyyat səhifələri, məzəli əhvalatlar,
elmi əsərlər, siyasətə, mədəniyyətə, idmana aid yazılar, qəribə
sevgi macəraları, uşaq yaradıcılığı, maraqlı yarışlar -
müsabiqələr və s. könlünüzcə olacaq.
"Xəzər Xəbər" gənclərin və oxuyan,
düşünən hər kəsin dərgisidir.
"Xəzər Xəbər"i İNTERNET vasitəsilə dünyanın
hər yerində oxuyurlar.
"Xəzər Xəbər"i siz də oxuyun!
"Xəzər Xəbər"ə siz də yazın!
"Xəzər Xəbər"i şəhərimizdəki qəzet-jurnal
köşklərindən ala bilərsiniz.
"Xəzər Xəbər" ayda iki dəfə çıxır.

Ünvan: Bakı şəhəri,
Məhsəti küçəsi, 11.
Əlaqə telefonları: 421-79-16
421-10-93.
E-mail: xazarxabar@khazar.org